# Xalq qəzeti

Xalqın qəzeti!

№ 234 (30350) 26 oktyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


## Günün sözü

**Prezident İlham ƏLİYEV:**

**Bu gün bir neçə ölkə və eyni zamanda, bəzi beynəlxalq təşkilatlar Ermənistan və Azərbaycan arasında gedən normallaşma prosesində öz dəstəyini göstərməyə çalışırlar. Biz bunu alqışlayırıq. Əgər bu, birtərəfli və qərəzli deyilsə, əlbəttə, biz istənilən vasitəçiliyi və yardımı qəbul edirik.**

# Brüssel formatı, yoxsa ermənipərəstliyin iflası?



**Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında bu ay keçirilməsi nəzərdə tutulan növbəti Brüssel raundu təxirə salındı. Əslində, bunu gözləmək olardı. Birincisi, İrəvan son zamanlar özünün anti-Azərbaycan ritorikasını gücləndirib. Mövcud şəraitdə görüş ab-havası nəzərə çarpmırdı. İkincisi, təşkilatçı tərəf – Avropa İttifaqının, konkret olaraq Aİ Şurasının prezidenti Şarl Mişelin komandasının təmasın təşkilinə dair fəallığı hiss olunmurdu. Nəhayət, Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar hər şeyə aydınlıq gətirdi. O, dünən Ermənistanın ARPI analitik mərkəzinin "Qeyri-müəyyənlikdə irəliləyiş" mövzusundakı konfransında məlum etdi ki, növbəti Brüssel raundu baş tutmayacaq.**

Əvvəldə də bildirdiyimiz ki, T.Klaar məsələni görüşün təxirə salınması kontekstində qoydu. Bu isə o deməkdir ki, Aİ Azərbaycan və Ermənistan liderlərini bir araya gətirmək ümidini üzməyib. O, nizamlama prosesinin ləng, amma düzgün istiqamətdə getdiyini vurğulayıb. Əlbəttə, bu deyimdən düz istiqamətin nədən ibarət olduğunu söyləmək çətindir.

Əslində, aydın olmayan heç nə yoxdur. Azərbaycan bütün ərazilərində suverenliyini bərpa edib. Qarşıda tərəflər arasında sülh müqaviləsinin imzalanması vəzifəsi dayanıb. Əlbəttə, sərhədlərin delimitasiyası və demarkasiyanın həyata keçirilməli olduğunu da qeyd etməliyik. Amma mövzudan bəhs edən Rusiya Prezidenti Vladimir Putinin bildirdiyi kimi, Qarabağ münaqişəsi həllini tapıb, yerdə qalan məsələlər texniki xarakterlidir.

T.Klaarın fikirlərindən gəlinən qənaət texniki əhəmiyyət daşıyan heç nəyin yoxluğunu söyləməyə əsas verir. O vurğulayıb ki, Aİ-nin qarşısında duran məqsəd Qarabağ ermənilərinin öz evlərinə qayıtmalarıdır. Çox təəccüblüdür. Qurum niyə bunu prioritet sayır? Bir halda ki, Qarabağ erməniləri öz xoşlarına bölgəni tərk ediblər, məsələ Aİ-ni narahat etməməlidir. Əlbəttə, heç də hər şey düşünüldüyü kimi sadə deyil və bu, müəyyən mənada başadüşüləndir. Amma... Yuxarıda da bildirdiyimiz kimi, Ermənistan inad edir və ən pisi isə budur ki, ölkənin inadına haqq qazandıranlar var. Axı T.Klaar Qarabağ ermənilərinin qayıtmaları barədə heç də təsadüfən söz açmır.

*(ardı 3-cü səhifədə)*

**Azərbaycanın, Türkiyənin, Rusiyanın, İranın və Ermənistanın xarici işlər nazirlərinin iştirakı ilə "3+3" platformasının Tehranda keçirilmiş ikinci iclası yalnız yaşadığımız coğrafiyada deyil, bütövlükdə, dünyanın Cənubi Qafqaza maraq göstərən regionlarında da geniş müzakirə predmetinə çevrildi. Bunu təsdiqləyən faktlar yetərincədir. Başlıca məqam isə iclasa və mövcud xüsusda "3+3" formatının özünə ABŞ-dan verilən reaksiyadır.**

# "3+3" – regional immunitet və müqavimət platforması



Məlum olduğu kimi, Birləşmiş Ştatların Dövlət Departamentinin sözçüsü Metyu Miller bu platforma çərçivəsində nazirlərin Tehran toplantısına Azərbaycan və Ermənistan arasındakı gərginliyin yumşaldılması kontekstində münasibət bildirmiş və demişdi ki, vəziyyətin normallaşmasını təmin edəcək istənilən müstəvi ölkəsi üçün məqbuldur.

Əlbəttə, demək olmaz ki, Miller və ya qeyrisi Bakı–İrəvan gərginliyinin yumşaldılması, münasibətlərin normal məcraya düşməsi üçün "3+3"-ün imkanlarını yüksək qiymətləndirir. Əslində, hazırda Ermənistanın ortaya qoyduğu davranış da optimizmə imkan vermir. Ancaq hər bir halda, bu formatın yüksək perspektivi ilə bağlı gözləntilər var.

Bəli, Azərbaycanın 44 günlük müharibədən sonra irəli sürdüyü platforma Cənubi Qafqaz regionu və ümumən bu bölgə ilə bağlı qütblərin maraqlarının uzlaşdırılması baxımından müstəsna, hətta deyərdik ki, tarixdə analoqu olmayan əməkdaşlıq düzənidir. Nəzərə alaq ki, bölgənin tarixi "3+3"-də təmsil olunan ölkələrin də ortaq tarixidir. O tarix ki, yüzilliklər ərzində konfliklərə, müharibələrə, toqquşmalara şahidlik edib.

Bir çox hallarda qanlı olayların yaşanmasını xarici amillər şərtləndirib.

*(ardı 3-cü səhifədə)*

# Hayastanın "xilaskar ordusu"

**Ermənistan hakimiyyəti ölkənin ərazisinə fransız, alman, çex, holland və kanadalı "missionerləri" dəvət etməklə guya dövlət təhlükəsizliyinin təminatı görüntüsünü yaratmağa çalışır.**



Avropa İttifaqının "mülki missiyası", yaxud "monitorinq heyəti" kimi qondarma adlarla Azərbaycanla sərhəd bölgələrinə yerləşdirilən həmin "transmissiyaların" əsl məqsədinin nədən ibarət olduğu çoxlarına məlumdur. Bu tip heyətlərin öz ərazisində fəaliyyətinə ehtiyac duymadığını bəyan edən rəsmi Bakı üçün İrəvanın "avropasayağı özfəaliyyətinin" heç bir qorxusu yoxdur. İntəhası, Paşinyan iqtidarı bu siyasi manevrləri ilə Qərb qarşısında müəyyən öhdəliklər götürdüyünü nümayiş etdirir.

*(ardı 6-cı səhifədə)*

# Azərbaycan "qlobal hədəflər"in regional lideridir

**Bakıda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, İqtisadiyyat Nazirliyi və BMT-nin birgə təşəbbüsü ilə oktyabrın 24-də keçirilən 3-cü Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) həsr olunan toplantıda Baş nazirin müavini, adıçəkilən şuranın sədri Əli Əhmədov ölkəmizdə bu sahədə görülən işlər barədə məlumat verərək Azərbaycanın 2030-cu ilədək Milli Prioritetlərinin və 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasının DİM-lər ilə sıx uzlaşdığını diqqətə çatdırıb.**



Baş nazirin müavini respublikamızla BMT arasında mövcud münasibətləri xüsusi vurğulayıb, beynəlxalq əməkdaşlıq platformaları çərçivəsində aparılan müzakirələrin qlobal çağırışlara adekvat cavab verilməsi imkanlarını artırdığını bildirib. Əli Əhmədov daha sonra ölkədə DİM üzrə vəzifələrin icrası və bütövlükdə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması üçün kompleks tədbirlərin uğurla həyata keçirildiyini diqqətə çatdırıb.

İclasda Azərbaycanın BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə sıx əməkdaşlıq etdiyi, DİM-in icrası ilə ölkəmizin sosial-iqtisadi inkişafı üçün səmərəli mexanizmlər formalaşdırıldığı vurğulanıb. Eyni zamanda, respublikamızın regionda ilk olaraq DİM-lərin reallaşdırılması istiqamətində BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna indiyədək 3 Könüllü Milli Hesabat təqdim etdiyi, növbəti hesabatın isə gələn il açıqlanacağı bildirilib. DİM-in həyata keçirilməsində vəsaitlərin məqsədyönlü istifadəsində, həmçinin şəffaflıq və hesabatlılığın gerçəkləşməsində ali audit orqanlarının rolu da yüksək dəyərləndirilib.

*(ardı 7-ci səhifədə)*

# Tarixi film və bir filmin tarixi


Səhifə ⇨ 10

# Yaxın Şərq: Odun üstünə yağ tökənlər...



***Bu il oktyabrın 7-də HƏMAS yaraqlılarının İsrail ərazisinə qəfil basqını, bu zaman dinc, günahsız sakinlərin girov götürülərək vəhşicəsinə qətlə yetirilməsi bütün dünyanı şoka saldı. Amma ardınca regionda baş verən cavab tədbirləri, təəssüf ki, aşırı zorakılıqlar ilə müşayiət olunur.***

Son günlər Qəzzadakı gərgin proseslər hər birimizi çox narahat edir. Burada aramsız bombardmanlar nəticəsində hər gün yüzlərlə insan həlak olur. Ölən və yaralananların sayında artıq haqq-hesab itib. Qəzzadakı xəstəxanalar ağzınacan doludur.

*(ardı 11-ci səhifədə)*

# Qarabağa dönən köçkünlərin 70 faizi işləyir


Səhifə ⇨ 8

## “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1947 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1947 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1457; 2023, № 6, maddə 800) 1.11.6.37-ci yarımbəndində “Azərbaycan Biznesinin İnkişafı Fondu” sözləri “Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 oktyabr 2023-cü il**

## Böyükşor–Pirşağı avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı şəhərində nəqliyyat sıxlığının azaldılması məqsədilə uzunluğu 12,7 km olan altı hərəkət zolaqlı Böyükşor–Pirşağı avtomobil yolunun layihələndirilməsi və tikintisi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 4,7 milyon (dörd milyon yeddi yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 oktyabr 2023-cü il**

# Əli Əsədov Gürcüstana işgüzar səfərə gedib



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 25-də Gürcüstana işgüzar səfərə gedib. Bu barədə XQ-yə Nazirlər Kabinetindən bildirilib.**

Tbilisidə Şota Rustaveli Beynəlxalq Hava Limanında Baş naziri Gürcüstanın infrastruktur naziri İrakli Karseladze və başqa rəsmi şəxslər qarşılayıblar.

# Baş nazirin DİM Dialoqu iştirakçıları ilə görüşü



**Oktyabrın 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Bakıda “2023-cü il Qlobal Dayanıqlı İnkişaf Məqsədləri (DİM) Sammitinin nəticələri və DİM-lərin həyata keçirilməsində ali audit qurumlarının rolu” mövzusunda keçirilən 3-cü DİM Dialoqunda iştirak edən ali audit qurumlarının rəhbər şəxsləri ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, Ə.Əsədov 3-cü DİM Dialoqunun əhəmiyyətini vurğulayaraq onu Azərbaycanın DİM-lərə nail olunması istiqamətində əldə etdiyi irəliləyişlərlə tanış olmaq, həmçinin bu prosesin qiymətləndirilməsində ali audit qurumlarının rolunu nəzərdən keçirmək üçün yaxşı fürsət kimi dəyərləndirdi.

Azərbaycan Hökumətinin BMT ilə əməkdaşlığa böyük önəm verdiyini deyən Baş nazir DİM üzrə öhdəliklərin həyata keçirilməsinin ölkəmizdə dövlət siyasətinin mühüm tərkib hissələrindən biri olduğunu bildirdi.

Diqqətə çatdırdı ki, DİM-lərin icrası ilə bağlı səmərəli milli icra mexanizminin formalaşdırılmasına ehtiyac olduğu nəzərə alınaraq, 2016-cı ildə Azərbaycan Prezidenti tərəfindən Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

Ötən dövrdə ölkəmizdə DİM-lərə nail olunması istiqamətində mühüm işlərin görüldüyünü deyən Ə.Əsədov Azərbaycanın DİM-lərin icrası üzrə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna 3 dəfə Könüllü Milli Hesabat təqdim edən regionda ilk və dünyada 10 ölkədən biri olduğunu bildirdi.

Diqqətə çatdırıldı ki, Azərbaycan Hökuməti DİM-lərin həyata keçirilməsində, o cümlədən ayrılmış vəsaitlərin məqsədyönlü istifadəsi, həmçinin şəffaflıq və hesabatlılığın təmin edilməsində ali audit qurumlarının roluna böyük əhəmiyyət verir. Bu məsələ cari ilin mart ayında Milli Əlaqələndirmə Şurası tərəfindən qəbul edilmiş Fəaliyyət Planında öz əksini tapmışdır.

Bildirildi ki, Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun cari ilin mart ayında Bakıda keçirilən Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 18-ci Dayanıqlı İnkişaf Məqsədi təşəbbüsü irəli sürülüb. Mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətləri özündə ehtiva edən bu DİM-in Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa işlərinin aparılması və həmin ərazilərə təhlükəsiz qayıdışın təmin edilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Azərbaycanın mina və digər partlayıcı sursatlardan ən çox çirklənmiş ölkələrdən biri olduğu diqqətə çatdırılaraq, İkinci Qarabağ müharibəsi başa çatandan sonra 300-dən çox hərbi və mülki vətəndaşımızın minadan həlak olduğu və ağır yaralandığı qeyd edilib.

Görüşdə DİM-lərin həyata keçirilməsində Ali Audit Qurumlarının rolu müzakirə olunub.

***XQ***

# Hindistanla əlaqələrin perspektivləri

**Oktyabrın 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Hindistan Respublikasının ticarət və sənaye üzrə dövlət naziri xanım Anupriya Patel ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Bakıda keçirilən iclasının önəmi vurğulanıb. İclasda qəbul edilən qərarların və imzalanan sənədlərin iki ölkə arasında münasibətlərin inkişafına təkan verəcəyinə əminlik ifadə olunub.

Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi fəaliyyəti barədə danışan Ə.Əsədov ötən dövrdə ölkəmizin gördüyü işlərə, irəli sürdüyü təşəbbüslərə və təşkilatın beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində atdığı addımlara görə ölkəmizə etimadın göstəricisi kimi onun Hərəkata sədrliyinin daha bir il uzadıldığını bildirib.

İkinci Qarabağ müharibəsindən sonra regionda cərəyan edən proseslər barədə fikirlərini bölüşən Baş nazir ötən dövrdə Azərbaycanın ciddi səylərinə baxmayaraq, Ermənistanın öz silahlı qüvvələrini Qarabağ ərazisindən çıxarmaqdan boyun qaçırdığını, üzərinə götürdüyü öhdəliklərdən yayınaraq danışıqlar prosesini davamlı olaraq pozduğunu, müxtəlif hərbi təxribatlara əl atdığını deyib.

Vurğulanıb ki, sentyabr ayında baş vermiş növbəti təxribatdan sonra Azərbaycan qısamüddətli lokal xarakterli antiterror tədbirləri nəticəsində öz suverenliyini tam şəkildə təmin edib. Azərbaycan Ordusunun yüksək peşəkarlıq göstərərək yalnız hərbi hədəflərə zərbələr endirdiyi, mülki infrastrukturu və mülki şəxsləri hədəfə almadığı qeyd olunub.

Bildirilib ki, hazırda Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, sülh müqaviləsinin imzalanması və Cənubi Qafqazda sülhün bərqərar edilməsi üçün tarixi şərait yaranıb. Belə bir həssas məqamda Ermənistan tərəfinin fəal şəkildə silahlanması sülh prosesinə ciddi zərbə vurur, Cənubi Qafqaz bölgəsində sülh və sabitlik üçün yeni təhdidlər yaradır.

Görüşdə, həmçinin Azərbaycan-Hindistan əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub.

***XQ***

## Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri cənab Kasım-Jomart Tokayevə

**Hörmətli Kasım-Jomart Kemeleviç!**

25 Oktyabr – Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Qazaxıstan sürətlə inkişaf edən, gündən-günə müasirləşən və güclənən dövlətdir. Sizin qətiyyətli rəhbərliyiniz altında aparılan əhəmiyyətli islahatlar ölkənizin sosial-iqtisadi yüksəlişini, beynəlxalq aləmdə nüfuz qazanmasını təmin etmişdir.

Biz dərin tarixi kökləri olan, qardaşlıq və qarşılıqlı etimad üzərində qurulmuş və bu gün yeni məzmun kəsb edən Azərbaycan-Qazaxıstan münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. Çoxşaxəli əlaqələrimiz, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə səmərəli qarşılıqlı fəaliyyətimiz dövlətlərarası münasibətlərimizi səciyyələndirən əsas cəhətlərdəndir. Daim genişlənən siyasi dialoq ilə yanaşı iqtisadiyyat, nəqliyyat, logistika, infrastruktur, enerji, humanitar və digər sahələrdə əməkdaşlığımızın dərinləşməsi tərəfdaşlığımızın yüksək səviyyəsindən və dinamik inkişafından xəbər verir.

Əminəm ki, mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə Azərbaycan ilə Qazaxıstan arasında müstəsna xarakter daşıyan əlaqələrin möhkəmlənməsinə, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 oktyabr 2023-cü il**

## F.Ş.Əliyevin Samux Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Firdovsi Şahmirzə oğlu Əliyev Samux Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 oktyabr 2023-cü il**

## A.İ.Qocayevin Samux Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Alı İbrahim oğlu Qocayev Samux Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 oktyabr 2023-cü il**

## Hikmət Hacıyev: Azərbaycanın Zəngəzurla bağlı ərazi iddiası yoxdur

**Bunu Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Politico” nəşrinə açıqlamasında deyib.**



Hikmət Hacıyev bildirib ki, Azərbaycan və Ermənistan Zəngəzur dəhlizini açmaqla bağlı razılığa gələ bilmədiyinə görə, bu layihə Azərbaycan üçün cəlbediciliyini itirib. Naxçıvana gediş-gəliş imkanlarını yaxşılaşdırmaq və yüklərin asan daşınması istiqamətində addımlar atılır. Bu məqsədlə İranla razılıq əldə olunub.

“Bizim gündəliyimiz yalnız ikitərəfli əməkdaşlıq çərçivəsində nəqliyyat əlaqələrinin qurulmasından ibarət idi. Bu məsələ hələ də masa üzərindədir, lakin Ermənistan tərəfinin bu proseslər barədə həqiqətən maraqlandığını göstərməsinə ehtiyac var”, – deyə Hikmət Hacıyev əlavə edib.

Prezidentin köməkçisi vurğulayıb ki, kommunikasiya Zəngəzur dəhlizi əvəzinə İran ərazisindən yaradıla bilər.

Qeyd edək ki, bundan əvvəl Avropanın “Politico” nəşri Amerika diplomatiyasının rəhbəri Antoni Blinkenin konqresmenlərlə görüşündə guya Azərbaycanın Ermənistana mümkün hücumu barədə xəbərdarlıq etdiyi barədə məqalə dərc etmişdi.

Xatırladaq ki, Baş nazirin müavini Şahin Mustafayev oktyabrın 6-da Zəngilanda jurnalistlərə açıqlamasında bildirib ki, Zəngilanın Ağbənd qəsəbəsi yaxınlığında və Naxçıvan ərazisində tikiləcək körpülər vasitəsilə İran ərazisindən keçməklə bağlantı yaradılacaq. Ş.Mustafayev qeyd edib ki, qarşılıqlı razılaşma əldə olunub, körpünün layihəsi hazırlanıb.

**XQ**

## Britaniya parlamentində Azərbaycanla bağlı müzakirə

**Britaniya parlamentində işğaldan azad edilmiş Azərbaycan ərazilərinin minalardan təmizlənməsi və yenidənqurma məsələsi qaldırılıb.**

Britaniya–Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun sədr müavini Devid Duqid Britaniya parlamentində keçirilən müzakirələr zamanı Şimali Amerika və Avropa regionu üzrə dövlət naziri Leo Dokertiyə Britaniya Hökumətinin və şirkətlərinin Azərbaycanın Qarabağ regionunun Ermənistan Silahlı Qüvvələri tərəfindən basdırılmış minalardan təmizlənməsi və işğal dövründə talan edilmiş, dağıdılmış şəhərlərin və yaşayış məntəqələrinin yenidən qurulması üçün hansı dəstəyi göstərdiyini sorğu edib.

Sualı cavablandıran dövlət naziri Britaniya Hökuməti tərəfindən regiondakı humanitar vəziyyətin qiymətləndirilməsinin davam etdirildiyini, 2020-ci ildən etibarən regionun minalardan təmizlənməsi üçün BMT-nin İnkişaf Proqramına 1 milyon funt sterlinq vəsaitin ayrıldığını qeyd edib, yenidənqurma və reinteqrasiya məsələlərinə dair Azərbaycan Hökuməti ilə müzakirələrin aparıldığını bildirib.

***

Böyük Britaniyanın Avropa regionu üzrə dövlət naziri Leo Dokerti erməni əhalinin Qarabağı tərk etməsini etnik təmizləmə adlandırmayıb. Britaniya Parlamentində Azərbaycanın Qarabağ bölgəsində lokal xarakterli antiterror tədbirlərinə toxunulub və Leo Dokertiyə Qarabağda 50-1000 nəfər aralığında insanın qaldığına dair sual ünvanlanıb.

**XQ**

# Brüssel formatı, yoxsa ermənipərəstliyin iflası?

## Azərbaycan və Ermənistan liderlərinin növbəti görüşünün baş tutmamasına dair düşüncələr

(əvvəli 1-ci səhifədə)

Məlum olduğu kimi, Azərbaycan və Ermənistan liderləri bu il oktyabrın 5-də Qranadada Avropa Siyasi Birliyinin üçüncü Zirvə toplantısı çərçivəsində bir araya gəlməli idilər. Lakin ölkəmiz görüşdən imtina etdi. İmtinanın səbəbi Fransanın ermənipərəst mövqe tutmasıdır. Bakı mövcud tərəfkeşliyə qarşılıq Fransa prezidenti Emmanuel Makronun, Almaniya Kansleri Olaf Şoltsun, Ermənistanın baş naziri N.Paşinyanın və Aİ Şurasının prezidenti Şarl Mişelin oturacağı masada özü ilə birgə Türkiyə liderinin də əyləşməsini istədi. Buna imkan verilmədi...

T.Klaar açıqlamasında Azərbaycan Prezidentinin qatılmamasına rəğmən, Qranada sammitinin əhəmiyyətini vurğulayır. Bu isə o deməkdir ki, Aİ həmin sammit çərçivəsindəki prioritetləri rəhbər tutmaqdadır. Prioritetlərdən biri Qarabağ ermənilərinin bölgəyə qayıtmasıdırsa, başlıca məqam prosesin hansı şərtlər altında reallaşmasıdır. Yeri gəlmişkən, həmin şərtlər də məlumdur. Bunu N.Paşinyan əvvəl Ermənistanın İctimai televiziyasına müsahibəsində dilə gətirdi, sonra nisbətən örtülü şəkildə Avropa Parlamentindəki çıxışında səsləndirdi. O dedi ki, Qranada sammitində imzalanmış sənədlər önəmlidir və onlara korrektələr yolverilməzdir. Sözügedən sənədlərdə isə Qarabağ ermənilərinin qayıdışı üçün əlavə hüquq və təhlükəsizlik təminatlarından söz açılır. Sanki Azərbaycanın konstitusion əsasda təqdim etdiyi vədlər yetərli deyil.

Bəli, Qranada sammiti Qarabağ ermənilərinin bölgəyə qayıtma şərtlərinə dair ayrıca beynəlxalq statusun tətbiqini əsas götürməkdədir. Üstəlik, sammit çərçivəsində Azərbaycanın Qarabağda, guya, etnik təmizləmə həyata keçirdiyi məsələsi də gündəmə gətirilmişdi ki, bu cür yanaşma da tam yolverilməzdir və qərəzlidir. Deməli, Aİ Ermənistanın qərəzli dəst-xəttini müdafiə etmiş tərəf kimi görünməkdədir. Hər halda, T.Klaarın Qranadadan danışmasından gəlinən nəticə budur. Halbuki, qurum bitərəf davranmalı idi. Davranmadı və Ş.Mişelin şəxsində obyektiv vasitəçidən konkret tərəfə çevrildi ki, mövcud trayektoriyanın hərəkətverici qüvvəsinin Fransa olduğu aşkardır.

İndiki durumda Brüssel raundunu səmərəsiz edən cəhətlərdən biri elə Ş.Mişelin açıqlamasıdır. O, bir müddət əvvəl bildirmişdi ki, Azərbaycan Qarabağ ermənilərinin bölgəyə qayıtmalarına səmimi yanaşırsa, bunu əməli ilə təsdiqləməlidir. Əməl bu olmalıdır ki, ölkəmiz Qarabağa BMT sülhməramlılarının yeridilməsinə razılıq verməlidir. Bir halda ki, Qarabağ münaqişəsi həllini tapıb, Rusiya sülhməramlıları bölgədəki varlıqlarını məhdudlaşdırmağa və Azərbaycan ərazisini tərk etməyə başlayıblar, o zaman nəyə görə onların yerini BMT sülhməramlıları tutmalıdır? Ona görə ki, Qarabağ erməniləri, daha doğrusu, onlardan faydalanmaq yolu tutan separatçılar özlərinin bölgə ilə bağlı avantüralarını davam etdirsinlər? Yəni, faktiki olaraq, hazırda Qərb tənzimləmə xəttinin ölkəmizə sırımaq istədiyi məhz budur.

Azərbaycan belə bir gedişatla razılaşsa, o zaman Ermənistanın Qarabağ da daxil olmaqla, ölkəmizin 86,6 min kvadratklilometrlik ərazidə suveren hüquqlarını tanımasının heç bir əhəmiyyəti qalmayacaq. Yeri gəlmişkən, İrəvan və Aİ mövcud tanınmadan söz açarkən, onun Alma-Ata Bəyannaməsinə əsasən gerçəkləşəcəyini vurğulayırlar. Sual olunur: nəyə görə məhz Alma-Ata prinsipləri? Cavab çox sadədir. Əgər Qərbdə bildirildiyi kimi, Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi baxımından beynəlxalq təminatlar məntiqi işə düşsə, gələcəkdə Ermənistan sözügedən Alma-Ata Bəyannaməsini də şübhələndirmək yolu tuta bilər. Məsələn, deyə bilər ki, Qarabağda referendum 1991-ci ilin noyabrında keçirilib və bölgə "müstəqilliyini" elan edib, Alma-Ata Bəyannaməsi isə həmin ilin dekabrında imzalanıb. Yəni, Qarabağın Azərbaycanın tərkibində olmadığı bir vaxtda. Baxın, hazırda Ermənistanda olan separatçı rejimin sonuncu "prezidenti" Samvel Şahramanyan sözündən, imzaladığı fərmana oxşar şeydən imtina edərək vurğulayıb ki, heç kəs "Dağlıq Qarabağ Respublikası"nı ləğv edə bilməz. Çünki, o, referendum yolu ilə yaranıb. Samvel, necə deyərlər, xoruzun quyruğunu göstərdi.

Belə olan halda, Aİ-nin şəxsində Qərb vasitəçiliyi formatını təmsil edənlər bölgədə yenidən separatçılığın alovlanmayacağına təmina verə bilərlərmi? Əlbəttə ki, yox! Nəinki təminat verə bilməzlər, üstəlik, Fransanın Aİ-dəki mövqeyinin güclü olduğunu nəzərə alsaq, tam əminliklə deyə bilərik ki, əksinə, Qarabağ avantürasına dəstək məntiqi işə düşəcək. Deməli, T.Klaarın hazırkı şərtlər daxilində Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanacağına ümid bəsləməsi diplomatik gedişdən başqa bir şey deyil. Qərb N.Paşinyanın başından Qranada eyforiyası ab-havasını çıxarmayınca, sülh mümkünsüzdür.



Əvvəldə vurğuladığımız məqama qayıdaraq bildirək ki, hazırda Ermənistan bütün beynəlxalq platformalarda anti-Azərbaycan ritorikasına baş vurmaqdadır. Paşinyan administrasiyasının təmsilçiləri, ölkəmiz Qranada sammitində iştirakdan imtina edəndə, bu təbliğata daha tünd "rəng çalarları" qataraq bildirdilər ki, Bakı sülhdən yayınır, Ermənistana qarşı işğalçılıq planları qurur və sair və ilaxır. Hələ Parisin İrəvanın təhlükəsizliyinin qayğısına qalmaq üçün qaldırdığı vay-şivən də var, üstəlik, bir neçə gün öncəki Fransa–Ermənistan hərbi-texniki əməkdaşlıq müqaviləsi də...

Halbuki, belə olmamalı idi. Əgər Paşinyan həqiqətən sülhə sadiq idisə, MDB Dövlət Başçıları Şurasının Bişkekdə keçirilmiş toplantısına qatılmalı, Azərbaycan Prezidenti ilə görüşməli idi. Nikol bundan imtina etdi və bu, o demək idi ki, Qranadada Azərbaycanın iştirakı olmadan imzalanmış sənədlər mənasız kağız parçasıdır. Belə olan təqdirdə, ölkəmizin təklif etdiyi təkbətək təmas məntiqi tam uyğundur. Bir halda ki, Ermənistan Rusiyanın vasitəçiliyindən rəsmi şəkildə imtina etməyib, o zaman nəyə görə bölgədən min kilometrlərlə aralıda olan Qərb platforması əsas götürülməlidir? Elə Moskva müstəvisi götürülsən də. Demək, bir daha məlum olur ki, Qərb İrəvanı dəstəkləmək məntiqinə köklənib...

Əlbəttə, Ermənistan Azərbaycanla danışıqlar prosesində həmişə manipulyativ mövqe tutub, sülhdən yayınıb. Bu mövqe necə olursa-olsun, Qarabağ avantürasının davamına hesablanmışdı. Lakin Azərbaycanın bu il sentyabrın 19-da keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra mövcud istiqamətdəki cəhdlər tamamilə sıradan çıxdı. İndi görünən budur ki, Qərb vasitəçiliyi Qarabağdakı erməni avantürizminin saxlanılmasına hesablanmışdı. Elə ona görə də Qranada sammitində anti-Azərbaycan tezislər ortaya atılmağa başladı. Ş.Mişel isə bunu pərdələmək üçüb, tez-tələsik, Brüssel görüşü təşəbbüsünü irəli sürdü. Həm istədi ki, özünün vasitəçilik missiyası iflasa uğramasın, həm də Qranadadakı nəticələr gücləndirilsin. Birinci məqamı başa düşmək haradasa mümkündür, ikincini isə yox. Çünki sözügedən sammitdəki sənədlər vasitəçilik yox, yalnız ermənipərəstlik məhsuludur.

Sonda onu da deyək ki, Ermənistanda T.Klaarın haqqında söz açdığımız açıqlamasından doğan bir sıra fikirlər gündəmə gəlməkdədir. Bu fikirlər sırasında Azərbaycan, Rusiya və Türkiyənin birləşərək Qərbə qarşı çıxmasından tutmuş, Ermənistanın işğalı perspektivinədək bir sıra məqamlar var. Halbuki, belə konspriativliyə əsla ehtiyac yoxdur. Çünki reallıq çox sadədir. Qarabağ Azərbaycan ərazisidir və bölgədə yaşayan insanların, o cümlədən ermənilərin rifahı ölkəmizin təklif etdiyi təminat qaydaları ilə tənzimlənməlidir. Burada hansısa başqa mətləblərin qabardılmasına qətiyyən ehtiyac yoxdur. Sülh müqaviləsinə gəlincə, məğlub Ermənistan bunu istəmirsə, eyni zamanda, sərhədlərin delimitasiyası və demarkasiyasından boyun qaçırırsa, Fransadan və digər ölkələrdən aldığı silahlara güvənib reallıqları dəyişməyə ümidlidirsə, üstəlik, blokada şəraitində qalıb Avropanın hesabına yaşayaraq rəzil duruma düşməyi arzulayırsa, buyursun. Necə deyərlər: can onun, cəhənnəm Tanrının!

***Ə.CAHANGİROĞLU***
***XQ***

# "3+3" – regional immunitet və müqavimət platforması

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın və Türkiyənin təklif etdiyi hazırkı model isə belə hallara qarşı immunitet formalaşdırır, "Region region ölkələri üçündür" ideyasını rəhbər tutur. Məsələyə məhz bu baxımdan yanaşsaq, "3+3" platformasının oktyabrın 23-də keçirilmiş iclasının yekunlarına dair birgə kommünikenin əhəmiyyəti xüsusi vurğulanmalıdır.

Sənədin ilk bəndində XİN rəhbərləri – Ceyhun Bayramov, Hakan Fidan, Sergey Lavrov, Hüseyn Əmir Abdullahian və Ararat Mirzoyan ölkələr arasında dostluq əlaqələrinin qarşılıqlı maraqlar və mehriban qonşuluq münasibətləri əsasında inkişafının vacibliyini nəzərə alıb, mübahisələrin sülh yolu ilə həllinin, suverenliyə, siyasi müstəqilliyə, ərazi bütövlüyünün toxunulmazlığına hörmətin vacibliyini vurğulayıblar. Onlar bu zaman BMT Nizamnaməsinin bütün prinsipləri əsasında beynəlxalq səviyyədə tanınmış sərhədləri, daxili işlərə qarışmamaq, güc tətbiq etməmək və ya zorla təhdid etməmək, həmçinin insan hüquqlarına hörməti əsas götürüblər.

Bu prinsiplərin açıqlanması ilk baxışdan adi görünə bilər. O anlamda ki, onsuz da dövlətlər bir-biri ilə münasibətlərdə həmin prinsiplərə üstünlük verməlidirlər. Sadəcə olaraq, dünyanın indiki gərgin durumunda bunları yada salmaq, yenidən bəyan etmək həm də mesajdır. Region dövlətləri bildirirlər ki, onlar qlobal gərginliklərin özlərinə sirayət etməsinə yol verməyəcəklər. Haqqında az əvvəl söz açdığımız immunitet məntiqi də elə budur.

Qeyd etdiyimiz məqam, əslində, kommünikenin ikinci bəndində də vurğulanmaqdadır. Orada göstərilir ki, tərəflər müxtəlif beynəlxalq problemlərə dair fikirlərini bildirərək, regionun ən mühüm məsələlərini müzakirə etdilər və konstruktiv dialoq imkanlarının yaradılmasında və ölkələr arasında qarşılıqlı faydalı əməkdaşlığın qurulmasında "3+3" regional məsləhət platforması kimi platformaların əhəmiyyətini vurğuladılar. Bu bənd, eyni zamanda, dövlətlər arasındakı mümkün anlaşılmazlıq və gərginliklər zamanı əsas olan, belə demək mümkünsə, təmkin paradiqmasını vurğulayır, habelə dialoqu səmərəli nəticələrə imza atmaq baxımından vacib sayır.

Kommünikedəki mühüm əhəmiyyət daşıyan məqamlardan biri də iqtisadi əməkdaşlığın önə çəkilməsidir. Məlumdur ki, tarixən qarşılıqlı faydalı münasibətlərin qurulması bir sıra dövlətlər və xalqlar arasında düşmənçilik və ziddiyyətlərə son qoyan faktor rolunda çıxış



edib. Region isə iqtisadi əməkdaşlıq baxımından cəlbedicidir, onun böyük perspektivi var.

Nəinki Azərbaycan, eləcə də bütövlükdə Cənubi Qafqaz üçün müstəsna əhəmiyyət daşıyan başlıca faktor isə 1994-cü ildən götürülmüş kursdur. O kurs ki, onu ümummilli lider Heydər Əliyev müəyyənləşdirdi, Prezident İlham Əliyev isə uğurla icra və inkişaf etdirdi. Bəli, böyük neft kontraktları bölgənin müstəsna təhlükəsizlik təminatıdır. Əlbəttə, bu təminat balanslı və optimallaşdırılmış siyasətsiz mümkünsüzə çevrilərdi.

Nəticə etibarilə onu deyə bilərik ki, bu gün Azərbaycanın reallaşdırdığı siyasət ümumən Cənubi Qafqazı sabitlik adası kimi görmək imkanları formalaşdırır. Əlbəttə, haqqında söz açdığımız və regiona aid dövlətlərin gərginliklərə münasibətdə adekvat davranmaları və müqavimət yaratmaları da önəmlidir. İmkanları həmin müqavimət üçün daim səfərbər saxlamaq şərtdir. Bunun üçün kommünikedə göstərildiyi kimi, iqtisadi əməkdaşlığı dərinləşdirməklə qarşılıqlı etimadın möhkəmlənməsi, dövlətlərin rifahı ilə regiondakı sabitlik alətlərini sağlam saxlamaq mütləqdir. Yeri gəlmişkən, mövcud məqamı nazirlər sənədin beşinci bəndində də vurğulayıblar: "Regionda davamlı sülhün və iqtisadi inkişafın möhkəmləndirilməsi üçün ikitərəfli və çoxtərəfli məsləhətləşmələr və əməkdaşlıq dərinləşdirilməlidir".

***

Əlbəttə, kommünike yalnız siyasi amplitud və ona reaksiya zəmini baxımından əhəmiyyətli deyil. Məsələn, sənədin dördüncü bəndində mədəni əməkdaşlığın, insanlar arasında təmasların və təhsil, elm, turizm, mədəniyyət və idman sahələrində birgə layihələrin əhəmiyyəti vurğulanmaqdadır. Belə yanaşmanın özü də hazırkı qlobal gərginliklər şəraitində mümkün çətinliklərin, potensial narazılıqların aradan qaldırılması baxımından son dərəcə müstəsna önəm daşımaqdadır.

***

Nazirlərin təsdiqlədikləri kommünike, eyni zamanda, dövlətlər arasındakı münasibətlərin hazırkı rəvanlığının nəticəsi kimi meydana çıxmış sənəddir. Buna görə orada regionun bütün ölkələri arasında münasibətlərin tənzimlənməsinə və inkişafına yönəlmiş proseslərdən məmnunluq ifadəsini tapmaqdadır. Əlbəttə, belə qənaətə gələrkən, müəyyən məsələlərə diqqət yetirilməsi şərtdir.

Birincisi, hazırda "3+3" platforması faktiki olaraq "3+2" platforması kimi fəaliyyət göstərməkdədir. Gürcüstan Rusiya ilə soyuq münasibətə görə ora qoşulmayıb. Ancaq nazirlər onun üçün də qapıların hər zaman açıq olduğunu vurğulayıblar və bu, kommünikenin yeddinci bəndində əksini tapıb: "Bu görüşün nəticələrini müsbət qiymətləndirərək, bu platformanın Gürcüstanın bərabərhüquqlu iştirakı üçün açıq olduğunu bir daha təsdiq etdik".

Mövcud xüsusdakı ikinci məqam Azərbaycan və Ermənistan arasındakı gərginlikdir. Məlumdur ki, Ermənistanın XİN rəhbəri A.Mirzoyan Tehrana iranlı həmkarının dəvətini qəbul edərək getmişdi. Sırf bu məntiq erməni mediasında kifayət qədər işıqlandırılmışdı. Yəni, belə nəticə hasil olmuşdu ki, Ermənistan təkcə İranın təklifini geri çevirməməyi, yalnız ona hörmətsiz yanaşmamağı rəhbər tutub.

Yeri gəlmişkən, haşiyə çıxaraq deyək ki, Tehranda Azərbaycan XİN rəhbəri C. Bayramovla A.Mirzoyanın görüşü baş tutdu. Məsələ ilə bağlı tələm-tələsik məlumat yayan Ermənistan XİN-in sözçüsü Ani Badalyanın söylədiklərindən görüşün əhəmiyyətini böyütməyin lazımsızlığı məntiqi boylandı. Bu, o demək idi ki, "3+3" Bakı–İrəvan münasibətlərinin tənzimlənməsi platforması sayıla bilməz. Sual olunur: nə üçün ola bilməz? İki dövlətin xarici siyasət konturlarını müəyyənləşdirən və icra edən şəxslər bir araya gəlirlərsə, daha nə olmalıdır? Təbii ki, ölkə rəhbərlərinin görüşü əsasdır. Ancaq bu cəhət onu deməyə əsas vermir ki, nazirlərin təması adi qiymətlənləndirilməlidir.

Ancaq qiymətləndirildi və bu yanaşma onu deməyə əsas verir ki, kommünikedə bildirildiyinin əksinə olaraq, regionun bütün ölkələri arasında münasibətlərin tənzimlənməsinə və inkişafına yönəlmiş proseslərdə məmnunluq yüksək səviyyədə deyil. Ermənistan "3+3"–də yer alsa da, bu təmsilçiliyi pozitiv prizmadan dəyərləndirmək məntiqindən uzaqdır. Çünki Qərbdən gələn direktivlər əsasında hərəkət etməkdədir. Ölkənin regional platformada iştirakı isə İranı özündən narazı salmamaq məqsədi güdür.

Ancaq o da məlumdur ki, İrəvan hazırkı yanaşmasında dəyişikliklər etməsə, Qərbi regiona gətirmək cəhdlərində israrlılıq nümayişində olsa, Tehranla konflikt qaçılmazdır. Hər halda, ikinci də öz sərhədləri daxilində kənar qüvvələrin yerləşməsindən məmnunluq duymayacaq. Əksinə, qəzəb və hiddətə köklənəcək.

***

Əlbəttə, dünya bir-biri ilə əlaqədədir. Beynəlxalq miqyasda baş verən proseslərin bumeranq effekti doğurması qaçılmaza çevrilir. XİN rəhbərləri bunu da nəzərə alıblar. Ona görə Qəzzadakı vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar. Onlar günahsız mülki şəxslərin hədəfə alınmasının dərhal dayandırılmasının vacibliyini vurğulayıblar ki, bununla əlaqədar müddəa təsdiqlədikləri sənədin səkkizinci bəndində yer alıb.

***

Daha bir vacib məsələ davamlılıqdır. Azərbaycanın, Türkiyənin, Rusiyanın, İranın və Ermənistanın xarici işlər nazirləri "3+3" formatı üzrə təmasların müntəzəm şəkil almasının zəruriliyi amili üzərində dayanıb, növbəti görüşün Türkiyədə keçirilməsi ilə bağlı razılığa gəliblər. Belə bir razılaşma kommünikenin doqquzuncu bəndində əksini tapıb. Həmin bənddə, həmçinin İrana toplantının təşkili üçün təşəkkür də ifadə olunub.

***

Sonda ümumiləşdirmə apararaq, bəzi cəhətlərə diqqət yetirək. Bir qədər əvvəl Ermənistanın qeyri-məqbul davranışı kontekstində bildirdik ki, İrəvan Cənubi Qafqazı Qərb təsir zonasına daxil etmək niyyətindədir. Bu niyyətin regionla əlaqəli dövlətlər üçün arzuolunmazlığını da vurğuladıq və İranın üzərində dayandıq.

Məlumdur ki, Ermənistan hazırda daha çox Rusiyanı Cənubi Qafqazdan çıxarmaq niyyətindədir. Amma Tehran Moskvadan sonra növbənin ona çatacağını yaxşı anlayır. İndiki durumda vəziyyət elədir ki, Ermənistan İrana müəyyən mənada sipər kimi yanaşır. İrəvan İran İslam Respublikasının özü ilə bağlı maraqlarının olduğunu düşünərək, bu amildən gen-bol yararlanır. Əslində, ikili oyun oynayır. Qərbin regiona gəlişinə münasibətdə İranı neytral saxlamağa cəhd göstərir. "Region region ölkələri üçündür" şüarını rəhbər tutan "3+3" platforması isə kənar qüvvələr qarşı açılmış siyasi cəbhədir. Bu cəbhənin prioritetləri həmin qüvvələrlə əməkdaşlıq zamanı region ölkələrinin hər birinin maraqlarını nəzərə almağı, onları uzlaşdırmağı tələb edir. Başqa sözlə desək, səmimiyyəti əsas götürür.

Bəli, Ermənistan mövcud formatda təmsil olunursa, səmimi davranmalıdır. Kommünikenin birinci bəndindəki şərtlər – ərazi bütövlüyünə, suverenliyə, sərhəd toxunulmazlığına hörmət məhz bu halda keçərli olacaq. İrəvan Azərbaycan, Türkiyə və Rusiya ilə münasibətlərini yoluna qoymalı, konstruktiv davranmağı bacarmalı, rasional düşüncəni rəhbər tutmalı, alətə çevrilməməlidir. Əlbəttə, Fransanın və dünya ermənipərəstliyinin təhriklərindən uzaq müstəqil hərəkət etməyi bacarmalı, özündə qətiyyət və iradə formalaşdırmalıdır. Əks halda regional sipər baxımından İrana ümid bəsləməsi yersiz olacaq. Çünki Tehranın İrəvandansa, sözünə sadiq Bakını, Ankarını və Moskvanı seçməsi daha məntiqidir.

Üzərində dayanmaq istədiyimiz digər məqam da var. Məlumdur ki, Qərbin planlarında Cənubi Qafqaz ölkələrini vahid məkan kimi Avropa Birliyinə daxil etmək niyyətləri var. Bölgədə "Qafqazın Benilüksü" yaratmaq planını nəzərdə tuturuq. Əlbəttə, məsələ ilk baxışdan cəlbedici görünsə də, onun hələ yetişmədiyi aşkardır. Ona görə yetişməyib ki, Qərbin yanaşmasının qayəsində mövcud coğrafiyada maraqlı olan güclərin mənafelərini heçə saymaq məntiqi dayanır. Belə bir məntiq isə regionu qan gölünə çevirə bilər. "3+3" platforması həm də bu cür qorxunc ssenariyə qarşı sipər mahiyyəti daşımaqda, sülh carçısı missiyasını daşımaqdadır.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

Əsrə bərabər 20 il

# O, bütün azərbaycanlıların lideri və qəhrəmanıdır




**Dahi şəxsiyyətlərin bəşəriyyətin tarixindəki yeri və rolu haqqındakı fikirlər, onların tərcümeyi-halı qədər müxtəlifdir. Lakin əksər fəlsəfi cərəyanların ilk carçıları və parlaq nümayəndələri şəxsiyyətlərin tarixi proseslərin inkişafındakı rolunun danılmaz olduğunu bildirirlər. Bu yazıya "Dünən və bu gün", "Qəhrəmanlar, qəhrəmana pərəstiş və tarixdə qəhrəmanlıq", "Tarixi və tənqidi təcrübələr" kimi seçilmiş insanların tarixdəki rolundan bəhs edən əsərlərin müəllifi, şotland əsilli Böyük Britaniya tarixçisi, yazıçısı və filosofu Tomas Karleylin sözləriylə başlamağım təsadüfi deyil.**

Karleylin şəxsiyyətlərin tarixdəki roluna münasibəti müasirlərindən, xüsusilə də şəxsiyyətlərin tarixdəki rolunu subyektiv ədəbi baxış bucağından təqdim etməyə çalışan müasiri Lev Tolstoydan və tənqidçisi Bertran Rasseldən daha aydın, daha əsaslandırılmış və faktolojidir. Tomas Karleyl ideya və məqsəd, həmçinin onların həyata keçirilməsi ilə bağlı mülahizə yürüdəndə də haqlıdır. Çünki o, şəxsiyyətlərin tarixdəki roluna, fransız filosofu Raymon Arondan fərqli olaraq, "təsadüflər" prizmasından yanaşmır". Yaxud Hegel kimi "tarixi reallıqları şəxsiyyətlərin yaratmadığını, onların yalnız proseslərin gedişatına təsir göstərə bildiklərini" iddia etmir və mistik "bəşəri ruh" anlayışına üz tutmur. Karleyl insan amilini və onun yüksək ideallara sahiblənərək və bütün maneələri dəf edərək hədəfinə doğru irəliləmək potensialını önə çəkir. Tomas Karleyl yazır: "İdeal (hədəf, məqsəd) sizin özünüzdədir! Bu hədəfə çatmağa mane olan sədlər də sizin öz içinizdədir.

İdeya və məqsədlərinizi həyata keçirmək üçün yeganə amil isə mövqeyiniz və iradənizdir". Qənaətimə görə, Tomas Karleyl tamamilə haqlıdır. Çünki cəmiyyətdə qəhrəmanlıq, fədakarlıq amilləri zəiflədikcə, liderlik keyfiyyətləri aşılandıqca, kütlənin gizli dağıdıcı qüvvəsi önə çıxır və bu dağıdıcı qüvvə, toplum öz gerçək qəhrəmanını yenidən kəşf edib önə çıxaranadək qarşısına çıxan hər şeyi, o cümlədən yüksək dəyərləri, yaradıcı potensialı darmadağın edir. Biz gerçək qəhrəmanların və liderlərin tarixi proseslərdəki rolunun arxa plana keçdiyi zaman kəsiyində 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində kütləvi şüurun və antiqəhrəmanların ağır fəsadlara yol açan dağıdıcı gücünün şahidi olmuşuq və nə yaxşı ki, bu proses uzunmüddətli olmayıb.

...Yenidən Tomas Karleylin, hədəf, məqsəd və iradə haqqında daha öncə iqtibas gətirdiyim fikirlərinə qayıtmaq və şəxsiyyətin tarixi proseslərdəki rolunu, onun öz içində, düşüncəsində cücərdiyi, inkişaf etdirdiyi və həyata keçirdiyi idealla bağlı konkret nümunəyə müraciət etmək istəyirəm.

Qeyd edim ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin müsahibələrindən birində yer alan bu nümunəyə daha öncəki yazılarımdan birində də diqqət çəkmişəm. İndiki halda, tarixi zəfərimizin və uğurlarımızın memarının sözügedən müsahibəsində yer alan önəmli məqamları yenidən gün işığına çıxartmaqda məqsədim, şəxsiyyətin, liderin öz idealına doğru necə inamla, qətiyyətlə addımladığını və xalqın arzusundan boy atan bu idealı milyonların hədəfinə çevirmək məharətini bir daha vurğulamaqdan ibarətdir.

Beləliklə, Prezident İlham Əliyev 2011-ci il dekabrın 24-də, "Hakimiyyətin formulu" müəllif proqramına müsahibəsində həmyerlimiz Mixail Qusmanın ona ünvanlandığı "Təsəvvür edin, siz "zaman maşını"nda keçmişə qayıtmağı bacarmısınız. Həyatınızdakı hansı hadisələrə qayıtmaq və onları yenidən hiss etmək istərdiniz",- sualına belə cavab verir:

"...Əgər belə bir imkanım olsaydı, gələcəyə gedərdim. Deyək ki, 10 il irəliyə. Baxmaq istəyərdim, görüm düşündüklərim, nəzərdə tutduqlarım alınıb, ya yox və hansı dərəcədə alınıb".

Qənaətimə görə, Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsi ilə bağlı 2020-ci il sentyabrın 27-dən başlayaraq günümüzə qədər davam edən, bizə silah tuşlayanların rüsvayçı məğlubiyyəti, ağ bayraq qaldıraraq təslim olmaları, müharibə canilərinin əli qandallı Bakıya gətirilməsi ilə nəticələnən, çoxlarına möcüzə təsiri bağışlayan qürurverici hadisələrə Prezident İlham Əliyevin məhz bu müsahibədəki fikirlərindən yol almaq lazımdır. Bu gün Ali Baş Komandanın 22 il öncə haqqında açıq danışmadığı, sadəcə işarə etdiyi müqəddəs ali məqsədin, ana xəttin, ata yolunun necə addım-addım, həm də mükəmməl bir şəkildə qət edildiyinə şahidlik edirik.

Bu, xalqın arzularının onun qəhrəmanının – liderinin düşüncəsində necə boy atdığının, müqəddəs ideala çevrildiyinin, mürəkkəb, öncədən təxmin edilməsi mümkün olmayan kombinasiyalarla, zərgər dəqiqliyi ilə gerçəkləşdirildiyinin bariz nümunəsidir. Bu öz xalqını, Vətənini, dövlətini canından artıq sevən, həyatının mənasını xalqının qürurunun yüksəldilməsində, yurdunun, elinin bütövləşməsində görən şəxsiyyətin, liderin, qəhrəmanın timsalında bir insanın tarixin gedişatını dəyişə biləcək zəka və xarakterə sahib ola bilmək potensialının tarixin qaranlıq səhifələrinə boylanmadan, keçmişə ayna tutmadan, fəlsəfi mülahizələr içərisində itib-batmadan gözümüzün önündə sərgilənən sübutudur.

Şəxsiyyətlərin tarixdəki rolu ilə bağlı keçmişə ayna tutmaq istəməsəm də, bizi bu günümüzə gətirən dünyagörüşünün, dərin strateji zəkanın ötən illərin foto və videogörüntülərindən boylanan cizgilərinə nəzər salmağı vacib hesab edirəm.

## Sadə azərbaycanlı qəhrəman

1990-cı ilin 20 Yanvar qırğınından sonra Ulu öndərin Azərbaycanın Moskvadakı daimi nümayəndiliyində keçirdiyi mətbuat konfransından çəkilən foto və videogörüntülərə nəzər salıram. İlham Əliyev hüznlü və qayğılıdır. İçindəki etirazı gözlərində kök salan fikir yükü ilə, üz cizgilərində tarıma çəkilən hüznlə pərdələdiyi açıq-aşkar görünür. O gündən başlayaraq, bizi Zəfərimizin mükəmməl bir şəkildə tamamlandığı günə qədər olan bütün fotoşəkilləri, təbii ki, hərəkətlilik və konkret situasiyaya uyğun reaksiya tələb edən məqamlar istisna olmaqla, göz önündən keçirirəm. Qəhrəmanımız bütün fotoşəkillərdə gözlərini, həmin zaman kəsiyində sezə, mahiyyətini anlaya bilmədiyimiz məchul bir nöqtəyə dikərək düşünür... Yalnız özünün görə bildiyi uzaqlarda Böyük Zəfərimizə və Bütövlüyümüzə aparan yolun cizgilərini çəkir.

İlham Əliyev qəhrəmanlığın və liderliyin bütün çalarlarıyla tarixin və yaşadığımız zamanın amansız gedişatını bizə qarşı olan misli görünməmiş haqsızlıq və ədalətsizliyə sinə gərməklə kökündən dəyişməyi bacaran, Azərbaycan xalqının tarix boyu yetişdirdiyi şəxsiyyətlərin ən mükəmməl cizgilərini xarakterində daşıyan insan obrazıdır.

O, xalqının ağır günündə, bütün maneələrə baxmayaraq, onunla birlikdə olan, hüznünü, ağrı-acısını bölüşən sadə azərbaycanlıdır.

O, şəhid anasının gözlərindəki dərdi ürəyinə köçürən, Vətən yolunda canını fəda edən qəhrəmanların doğmalarının acısını öz ağrısı kimi yaşayan, şəhid məzarları önündə acısını köksünə sıxan qardaşdır...

O, Azərbaycan xalqının arzularını ifadə edən ata vəsiyyətini yerinə yetirdiyi üçün qürurunu, sevincini, öz yurduna geri dönənlərin sözlə ifadə edilməsi mümkün olmayan duyğularını gözünə sıxıb kövrələn övladdır, atadır!

O, 20 il ərzində öz xalqını zamanın dolanbaclarından keçirərək, məğlubiyyət sindromunu qətiyyəti və inamı ilə yenən, dünyanın haqsız düzənində meydan sulayan şərin himayəsinə sığınan qaranlığı zəkasının işığıyla qovan, total ədalətsizliyə savaş açan və qalib gələn sərkərdədir!

O, bütün azərbaycanlıların qəhrəmanı və lideridir!

***Elçin MİRZƏBƏYLİ***

# Vaqif Xaçaturyanın məhkəməsi noyabrın 1-də davam etdiriləcək



**Qanunsuz erməni silahlı birləşmələrinin üzvləri tərəfindən 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində soyqırımı törətməkdə təqsirləndirilən Xaçaturyan Vaqif Çerkezinin cinayət işi üzrə oktyabrın 25-də növbəti məhkəmə iclası keçirilib.**

Məhkəmədə zərərçəkmiş şəxslərin ifadələri dinlənilib. Onlar V.Xaçaturyanın Meşəlidə və ətraf ərazilərdə öz dəstəsi ilə törətdiyi cinayətlərdən danışıblar.

Prosesdə fasilə elan edilib, məhkəmənin növbəti iclası noyabrın 1-də keçiriləcək.

Qeyd edək ki, Vaqif Xaçaturyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələri ilə təqsirləndirilir.

Vaqif Xaçaturyanın iştirakı ilə Qarabağ iqtisadi rayonunda yaşayan, həmçinin Ermənistan Respublikasından gəlmiş millətçi ermənilərdən ibarət yaradılmış, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı hərbi birləşmələrdən ibarət cinayətkar birliyin tərkibində Xocalı (keçmiş Əsgəran rayonu ərazisində) rayonunun Meşəli kəndində yerli azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı, təqibetmə, didərgin salma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma cinayətləri nəticəsində ümumilikdə 27 nəfər qəsdən öldürülüb, 21 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 2 nəfər kənd sakini girov götürülüb, 81 ailə təsərrüfatından ibarət 340 nəfər daimi yaşayış yerlərindən Azərbaycan Respublikasının digər ərazilərinə didərgin salınıb, kənd sakinlərinə ümumilikdə 13 milyon 568 min 60 manat, dövlətə isə 130 min 800 manat məbləğində maddi ziyan vurulub.

***XQ***

# Dünyanı heyran qoyan azərbaycanlı dahi

**"Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə dünən "Heydər Əliyev–100: Müstəqil Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyasında Ümummilli liderin rolu" mövzusunda onlayn formatda beynəlxalq konfrans keçirilib.**




Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin banisi, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə keçirilən videokonfransın işinə uğurlar arzulayıb və toplantının Ulu öndərin irsinin hərtərəfli öyrənilməsinə mühüm töhfə olacağını söyləyib. O, Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövündə həyata keçirdiyi misilsiz tədbirlərin tarixi önəmini vurğulayıb.

Sonra dünyaşöhrətli yazıçı, Qazaxıstanın ictimai-siyasi xadimi Oljas Süleymenovun videomüraciəti nümayiş olunub. O, 60 il ərzində üzərində çalışdığı və bu il başa çatdırdığı türkşünaslıq və şumer ədəbiyyatı ilə bağlı tədqiqat əsərini Heydər Əliyevin 100 illik yubileyinə hədiyyə etdiyini vurğulayıb.

Rusiyanın TASS xəbər agentliyinin baş direktorunun birinci müavini, Əməkdar jurnalist Mixail Qusman, YAP Veteranlar Şurasının üzvü Əli Həsənov, Belarus Milli Assambleyasının Nümayəndələr Palatasının deputatı Tengiz Dumbadze, Tacikistanın Respublikasının keçmiş xarici işlər naziri, Tayxe İnstitutunun professoru Rəşid Alimov, Gürcüstanın Azərbaycandakı sabiq səfiri Zurab Qumberidze, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova Ulu öndər Heydər Əliyevin nəsillərə örnək olan mənalı həyatı və çoxşaxəli siyasi fəaliyyətindən söz açıblar.

**XQ**

# Milli Məclisin nümayəndə heyəti Türkiyədə

**Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti oktyabrın 25-də Türkiyə Respublikasının paytaxtı Ankara şəhərinə rəsmi səfər edib.**



Nümayəndə heyətinə Milli Məclisin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, Milli Məclisin Hesablayıcı komissiyasının sədri Eldar Quliyev, deputatlar Ağalar Vəliyev, Cavanşir Paşazadə, Fazil Mustafa, parlament Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər daxildir.

***Ə.BƏDƏLOV***
***XQ***

# Kanadanın Azərbaycanla təhdid dilində danışması faydasızdır

**Kanadanın Azərbaycanla təhdid dilində danışması olduqca yanlışdır və heç bir tərəfə uğur gətirə bilməz.**



Bu barədə Azərbaycan XİN-in şərhində bildirilir.

Qeyd edilib ki, Kanada nazirinin bölgədəki vəziyyətdən xəbərsiz şəkildə nümayiş etdirdiyi qərəzli mövqeyi tamamilə əsassızdır.

"Bölgədə heç bir humanitar böhran olmayan bir şəraitdə Kanada naziri tərəfindən bunun əksinin iddia edilməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə açıq dəstək verilməməsi, eləcə də Azərbaycanın keçmiş işğal olunmuş ərazilərindən köçkün düşmüş və Ermənistandan zor gücü ilə deportasiya olunmuş qaçqınların vəziyyəti ilə maraqlanmaması Kanada tərəfindən ölkəmizə qarşı göstərilən açıq qərəzin bariz nümunəsidir.

Kanadanın Azərbaycana qarşı tədbir kimi sanksiya variantını istisna etməməsinə gəldikdə qeyd edək ki, Azərbaycanla təhdid dilində danışılması olduqca yanlışdır və heç bir tərəfə uğur gətirə bilməz.

Bu kimi təxribat xarakterli və qərəzli bəyanatların bölgənin beynəlxalq hüquq prinsiplərinə hörmət əsasında gələcək inkişafı və tərəqqisinə maneçilikdən başqa bir şey olmadığı nəzərə alınmalıdır", - şərhdə vurğulanır.

**XQ**

# Rusiya MN Qarabağın tarixi yer adlarını bərpa etdi

**Rusiya Müdafiə Nazirliyi gündəlik bülletenlərdə Qarabağdakı bütün yer adlarını Azərbaycanın tarixi toponimləri ilə əvəz edib.**



XQ xəbər verir ki, bugünkü bülletendə "Qarabağ" Azərbaycanın Qarabağ iqtisadi rayonu, "Stepanakert" Xankəndi kimi təqdim olunub.

Bununla yanaşı, "Mardakert" Ağdərə, "Əsgəran" Xocalı, "Martuni" Xocavənd kimi qeyd edilib.

Bundan əvvəl Azərbaycanın Qarabağ regionu ilə bağlı bülletenlərdə SSRİ dövründəki terminlər istifadə edilib.

**XQ**

XX əsrin ən romantik peşələrdən biri pilot peşəsi hesab edilir. Hava gəmisinin sükanı arxasına keçib iş gününü buludların üzərində keçirmək, dünyanı əngin səmalardan müşahidə etmək və daim səfərlərdə olmaqdan romantik nə ola bilər. Elə ona görə də pilot olmaq İlham Əmirov üçün də möhtəşəm bir arzu idi. Bu arzunun ünvanına çatmaq üçün tez böyümək, orta təhsilini əla qiymətlərlə başa vurub attestat almağa tələsirdi. Özünün ideal planlarını qurmuşdu və bu yolda yorulmaq bilmədən oxuyur və çalışırdı.



# Qırx ilə bərabər bir gün

Çox keçmədi ki, İlham 1976–1979-cu illərdə Belarusiyanın paytaxtı Minskdə Aviasiya Mühəndisliyi Məktəbini, 1980–1984-cü illərdə isə Ukraynadakı Ali Aviasiya Akademiyasını fərqlənmə diplomları ilə bitirdi. Bundan sonra pilot kimi mülki aviasiyada fəaliyyətə başladı. Mavi səmanın gözəlliklərini seyr etmək özgə bir zövq idi. Başqa bir dünyanın ləzzətini yaşadan uçuş sükanın arxasında, o özünü, sözün həqiqi mənasında, quş kimi hiss edirdi. Zaman ötdükcə ilk vaxtlar keçirdiyi həyəcandan əsər-əlamət belə qalmırdı.

–Elə ki, idarə etdiyin təyyarə havaya qalxır bütün qayğılar yoxa çıxır və uşaqlıqda maraqla dinlədiyin "Uçan xalça"nın nağılı reallığa çevrilir, – deyə İlham Əmirov pilot həyatından aldığı zövqü sözlə daha gerçək təsəvvür etməyə çalışır. – Qəlbində bir yüngüllük hiss edirsən, elə bil o öz-özünə, heç bir texnika olmadan uçursan...

Uçuşlara başladığı ötən əsrin səksəninci illərində onun arzularına rəğmən qurduğu planlarda ölkəsinin həqiqi vətəndaşı kimi xalqına və millətinə xidmət etmək əsas xətt idi. Lakin Tanrı İlhamı onun özünün ağlına belə gəlməyən daha böyük bir missiya üçün hazırlayırdı. Elə bir missiya ki, xalqının və Vətəni Azərbaycanın taleyi bu missiyanın uğurla yerinə yetirilməsindən çox asılı olacaqdı.

– SSRİ dağılandan sonra sanki romantika da bitdi. Azərbaycanda vəziyyət günü-gündən ağırlaşırdı, – deyə İlham Əmirov düz 30 il əvvələ, Azərbaycanın xaos yaşadığı illərə qayıdır. – Axı biz pilotlar sakit səma aşiqləriyik. Doğrudur, bəzən səmada da təbiətin şıltaqlıqları ilə qarşılaşırsan. Güclü küləklər, ildırımlar, hava boşluqları, tufan və qasırğalar sənə mane olmağa çalışır. Amma sən peşəkarsansa, bunlar səni heç vaxt qorxutmur... Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra isə biz səmada deyil, doğma Vətəndə çox böyük bəlalarla üz-üzə qaldıq. 10 min metr yüksəklikdə uçanda heç nəyi vecinə almayan biz pilotlar, yerdə baş verənlərdən qorxmağa başladıq...

1993-cü ildə İlhamı qorxudan yenicə müstəqilliyinə qovuşan Azərbaycanın düşdüyü ağır vəziyyət idi. Bir tərəfdən Ermənistanın ölkəyə təcavüzü, digər tərəfdən hakimiyyətdəki xaos və özbaşınalıq Azərbaycanı fəlakətə sürükləyirdi. Belə bir vaxtda xalq arasında Heydər Əliyevin hakimiyyətə dəvət olunması sürətlə ümummilli xarakter alırdı. Hakimiyyətin təpkilərinə, təzyiqlərinə baxmayaraq, artıq küçə və meydanlarda "Heydər baba, xalq Səni çağırır!" kimi çağırışlar açıq-açığına daha gur səslənməyə başlayırdı. Gəncədə baş verən hadisələrdən sonra hakimiyyət böhranı sürətlə dərinləşməyə başlayanda isə xalqın bu təkidli tələbləri daha açıq və geniş xarakter aldı.

İyunun əvvəllərində çıxılmaz vəziyyətə düşən Azərbaycan rəhbərliyi Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etmək məcburiyyətində qaldı. Ulu öndərlə aparılan danışıqlar və xalqın təkidli tələbləri onu Azərbaycanın taleyinə laqeyd qoya bilməzdi. Hamı başa düşürdü ki, belə bir vaxtda Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın yeganə xilas yoludur. Bunu istəməyən isə Azərbaycana diş qıcıyan Ermənistan və ona himayədarlıq edən ölkələr idi.

AXC hakimiyyəti qəti qərar qəbul etdi: Heydər Əliyev Bakıya gəlməlidir. 1993-cü il iyunun 9-da Heydər Əliyevi Bakıya gətirmək üçün "Tu-134" mülki təyyarəsi Naxçıvana yola düşməli idi. Bu sadə bir reys deyildi və hər pilota da etibar edilə bilməzdi. Belə bir məqamda seçim 10 il fasiləsiz uçuş staji olan, yüksək səviyyəli və təcrübəli pilot "Azərbaycan Hava Yolları" QSC-nin uçuş dəstəsinin komandiri İlham Əmirovun bəxtinə düşdü.

İlham bu xəbəri eşidəndə sevincinin həddi-hüdudu yox idi. Çünki o zaman gənc olmasına baxmayaraq, xalq arasında dillər əzbəri olan Heydər Əliyev əfsanəsi haqqında çox eşitmiş və elə bu eşitdikləri ilə də Ulu Öndərə qəlbində sonsuz sevgi yaranmışdı. İndi isə bu böyük şəxsiyyəti od-alov içində çapalayan Azərbaycanın döyünən ürəyi Bakıya gətirəcək təyyarənin sükanı arxasında oturmaq ona – pilot İlham Əmirova həvalə edilmişdi. Ani sevincdən sonra təyyarənin Naxçıvana və geri uçuşunun Ermənistan hava məkanı üzərindən keçəcəyini biləndə son dərəcə həyəcanlanmışdı. Təyyarə uçuşa hazırlanmağa başlayandan bütün prosesə özü nəzarət edir, xirda detalları belə şəxsən özü yoxlayır, dəmir qanadlı bu nəhəng maşının çətin məqam yaranarsa, sınaqdan üzüağ çıxmasına arxayın olmaq istəyirdi.



Təyyarə uçuş xəttindən havaya qalxandan İlhamın diqqəti nə qədər idarəetmədə olsa da, fikri geriyə qayıdışı hansı hava məkanından həyata keçirəcəyi ilə bağlı idi. İndi o başa düşürdü ki, bir neçə saatdan sonra təyyarəsində Azərbaycanın taleyini dəyişəcək və xalqının xilasına tələsən çox qiymətli bir sərnişin olacaq. Bu sərnişini isə xətasız və xətərsiz Bakıya çatdırmaq məsuliyyəti onun üzərinə düşürdü. Təyyarə Naxçıvana enməmiş İlham geriyə qayıdışın bir neçə hava məkanı marşrutunu götür-qoy edirdi. Ermənistanın üzərindən uçanda geriyə bu yolla qayıtmağın çox qorxulu nəticələr verə biləcəyi düşüncəsinə hakim kəsildiyi üçün heç zaman olmayan qədər həyəcan keçirdi və alnından soyuq tər damcıları göründü.

– Günortaya yaxın təyyarəni Naxçıvan Hava Limanında yerə endirdik, – deyə İlham Əmirovun, tarixin o gərgin anlarını təkrar yaşayırmış kimi baxışları ciddi bir görkəm aldı. – Naxçıvan Hava Limanında gördüklərimiz məni bir qədər də həyəcanlandırdı. Vəziyyət indi sizin təsəvvür edə biləcəyinizdən çox-çox gərgin idi. Bakıda olduğu kimi, Naxçıvanda da bir-birinə tabe olmayan silahlı dəstələr var idi və onlar hər an toqquşa bilərdilər. Amma Bakıdakından fərq bircə onda idi ki, Naxçıvanda Heydər Əliyevin nüfuzu və ona olan inam çox böyük idi və onun əleyhinə çıxanlar xalqın bu sevgisindən qorxurdular. Buna baxmayaraq, Bakıdakı başçılarından tapşırıq alan bəzi qüvvələr hər vəchlə Heydər Əliyevin Bakıya qayıdışına mane olmağa cəhd edirdilər. Hava limanında da beləlı az deyildi və əllərində silah var-gəl etməkdə, Bakıdan gələn təyyarəni və onun salonundan düşən insanları, xüsusilə pilotları zəhmli baxışlarla süzüb nəzarətdə saxlamaqda idilər.

Onlardan biri mənə yaxınlaşıb çox acıqlı-acıqlı soruşdu: "Kimi aparmağa gəlmisiniz?" Təbii ki, mən bu suala cavab vermək səlahiyyətində deyildim və olsaydım belə dəqiq cavab verməyəcəkdim. Çox təmkinlə bildirdim ki, "kimlər təyyarəyə minsə onları da apararıq". Bu yerdə ürəyim dolu olsa da, son dərəcə soyuqqanlı davranmaq lazım gəldiyini və artıq nəsə deməyin düzgün olmadığını başa düşürdüm...

Bir qədər sonra hava limanında canlanma yarandı. Yerli polis orqanlarının nümayəndələri lazımi mövqelərini tutdular. Yalnız bundan sonra qara rəngli "Volqa" "Qaz-24" markalı maşın birbaşa təyyarənin dayandığı yerə yaxınlaşdı. İlhamın gözləri sevincdən parlamağa başladı. Amma sayıq olmaq lazım gəldiyi üçün təyyarənin ətrafını gözdən qoymur, köməkçi pilota da gözü ilə işarə edirdi ki, nəzarəti itirməsin. Heydər Əliyev avtomobildən düşüb onu müşayiət edən bir neçə nəfərlə "trapa" yaxınlaşdı və burada onlardan bəziləri ilə sağollaşıb təyyarəyə qalxdı. İndi artıq Xilaskar salonda yerini tutmuşdu, amma onun Bakıya qədər təhlükəsiz uçmasına tam təminat yox idi.

İlham Əmirov təyyarəni səmaya qaldırandan sonra hələ Bakıdan Naxçıvana uçarkən düşündüyü marşrutların hansının daha təhlükəsiz olacağını bir də təhlil etdikdən sonra, qəti qərara gəldi ki, Naxçıvan – Bakı reysinin ənənəvi marşrutu olan Ermənistan hava məkanından uçmaq, həmçinin Gəncənin üzərindən keçmək çox təhlükəlidir. Nədənsə, yaddaşında Ermənistanda zəlzələ olarkən Azərbaycan təyyarəsinin qəzaya uğraması, Qarakənddə Azərbaycanın bir çox rəhbər şəxslərinin olduğu vertolyotun raketlə vurulması hadisələri canlandı. Bu erməni canilərindən, ondan heç də geri qalmayan daxili xəyanətkar qüvvələrdən nə desən gözləmək olardı. Ermənilər Heydər Əliyevin Bakıya hakimiyyətə qayıdışının onlar üçün istər beynəlxalq aləmdə, istərsə cəbhə xəttində hansı nəticələrə səbəb olacağını yaxşı bilirdilər. Onlar Heydər Əliyevin təyyarədə olduğunu bilsəydilər, təyyarəyə qarşı terror aktından belə çəkinməyəcəkdilər. İstisna deyildi ki, bu barədə onlara Azərbaycandakı xəyanətkar qüvvələr tərəfindən məlumat da sızdırıla bilərdi. Amma bunların xofu azərbaycanlı pilotun əzminə təsir etmədi. Bu anlarda, o, bir amal naminə ağlının və biliyinin daha dərin qatlarını işə salmışdı: Azərbaycanın, xalqının Xilaskarı və son ümidi olan Heydər Əliyevi Bakıya xətərsiz, xətasız çatdırmaq naminə hər şeyə hazır idi.

İlham Əmirov idarə etdiyi "Tu-134" laynerinin diqqəti cəlb etməməsi üçün, seçdiyi marşrutla bağlı lazım olan tədbirləri gördükdən sonra, təyyarənin rabitə sistemini söndürdü. Təyyarəni İran istiqamətinə yönəldərək Azərbaycanın cənub sərhədlərindən Bakıya istiqamət götürdü. Ermənistanın müvafiq aviasiya qurumları Azərbaycan mülki aviasiyasının marşrutu belə dəyişməsindən çaşıb qalmışdılar. Təyyarənin komandiri İlham Əmirova ard-arda suallar verir, nəsə dəqiqləşdirmələr aparmaq istəyirdilər. Amma komandir onlara hansı cavabları verəcəyini yaxşı bilirdi. Ermənistan tərəfdən təhlükə sovuşandan sonra artıq onların sualları belə cavabsız qaldı.

Beləliklə İlham Əmirov ilk baxışdan çox sadə, ancaq salonunda çox dəyərli bir şəxsiyyətin olduğu və bu səbəbdən son dərəcə gərgin bir marşrutla reysə çıxan təyyarəni Bakıya çatdırır və hava limanında uğurla eniş edir. Eniş etmək isə onun üçün elə də çətin bir iş deyildi.

Əslində, Bakıda da hər şey onun istədiyi kimi deyildi. Ona görə də Heydər Əliyevə qarşı Bakı Hava Limanında da təxribat ola biləcəyini nəzərə almışdı və bundan çıxış yollarını belə planlaşdırmışdı. Özü bu planını belə açıqlayır:

– Düşünürdüm ki, əgər təyyarəyə hücum olarsa "Tu-134"-ün texniki imkanlarından, elə laynerin qaz-tüstü sistemindən istifadə edərək, baş verə biləcək təhlükəni dəf etməyə hazır olaq. Lakin çox şükürlər olsun ki, buna ehtiyac qalmadı. Heydər Əliyevi qarşılamağa gələn həqiqi vətənpərvər oğlanların qətiyyəti sayəsində böyük Xilaskar öz missiyasını yerinə yetirmək üçün mərkəzə, öz postuna doğru istiqamət götürdü...

Bundan sonra İlham Əmirovun təyyarə komandiri kimi uçuş tarixçəsində çox reyslər olub. Ulu öndər Heydər Əliyevin 100 illiyini qeyd etdiyimiz bu günlərdə 40 ilə yaxın uçuş təcrübəsi olan peşəkar pilotumuzdan ən çox yadda qalan uçuşu soruşanda düşünmədən dedi: "9 iyun 1993-cü ildə "Tu-134" təyyarəsində həyata keçirdiyim Bakı–Naxçıvan–Bakı reysi həyat tarixçəmə qızıl hərflərlə yazılıb. Bu, həyatımın 40 ilinə bərabər bir gün idi. Çünki bu uçuşumla mən Bakıya Azərbaycanın xilaskarını, müstəqilliyimizin memarını və dövlətçiliyimizin qurucusu, ulu öndər Heydər Əliyevi gətirmişəm. "

Təbii ki, İlham Əmirovun mülki aviasiyadakı fəaliyyəti təkcə bu faktla qeydə alınmayıb. O, 40 illik pilot fəaliyyətinin 33 ilini xüsusi əhəmiyyətli dövlət uçuşlarını həyata keçirib. Bu isə o deməkdir ki, İlham Əmirov bu müddətdə dövlət başçısının sərnişini olduğu Azərbaycanın "1 nömrəli uçuş gəmisinin" pilotu və komandiri olub. Bununla yanaşı, o, 30 il əvvəlcə "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktor müavini, qurumda struktur dəyişikliklərindən sonra isə "AZAL" QSC-nin vitse-prezident vəzifəsində çalışıb, 30 ilə yaxın uçuş işlərinə rəhbərlik edib.

İlham Əmirovun peşəkar kimi fəaliyyətinin bir göstəricisi də ondan ibarətdir ki, o, Azərbaycan Mülki Aviasiyasında istismarda olan bütün hava nəqliyyat gəmilərini çətinlik çəkmədən idarə edib və bir çoxlarının ilk azərbaycanlı pilotu hesab edilir. Belə ki, 2003-cü ildə Azərbaycana ilk "Aerobus -320" sərnişin hava gəmisini, 2010-cu ildə isə ABŞ-ın Sietl şəhərindən ilk "Boing-767" sərnişin təyyarəsini 14 saatdan artıq idarə edərək Bakıya gətirən məhz İlham Əmirov olub.

Bütün bunlarla yanaşı, pilotumuzun əmək fəaliyyətinə yazılan 40 illik uçuş müddətində bir dəfə də olsun hər hansı insident, uçuş qaydalarının pozulması və sair nöqsanlara yol verməməsi də xüsusi qeyd ediləsi göstəricilərdəndir.

Uçmaq həvəsinin heç zaman sönmədiyini bildirən ustad pilotumuz təəssüflə bildirir ki, bu il 65 yaşı tamam olduğu üçün Beynəlxalq Mülki Aviasiya (İKAO) standartlarının tələblərinə görə, uçuş fəaliyyətini dayandırıb. Pilotumuzun bu xəbəri çox təəssüflə dediyi üçün ixtiyarsız olaraq soruşuram:

– Deyirlər, heç olmasa, bir dəfə təyyarə sürən insanlar bir də heç zaman göydən yerə enmirlər. Bu doğrudurmu?

Gülür və belə cavab verir:

– Bilirsiz, yenidən uçmaq üçün hamı yerə qayıdır, səmanınənginlikləri adamı daim çəkir. İndi mən artıq təyyarə idarə etmirəm, ancaq əllərim sükan üçün ağlayır...

*Məhərrəm SƏFƏRLİ,*
*Zərdabi mükafatı laureatı*

# "Ulu öndər silahdaşlarının xatirələrində"

**Ümummilli lider Heydər Əliyevin 100 illiyi ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən hazırlanan, Ulu öndərin həyat və fəaliyyətini özündə əks etdirən, dahi şəxsiyyətin mənalı ömrünün təhlükəsizlik orqanlarında keçən hissəsi ilə bağlı "Ulu öndər silahdaşlarının xatirələrində" adlı kitab ədəbiyyat ictimaiyyətinə təqdim olunub.**

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq yazıçısı Anar, AYB-nin katibi, Xalq yazıçısı Çingiz Abdullayev, DTX rəsmiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Kitabda vaxtilə təhlükəsizlik orqanlarında uzun müddət Heydər Əliyevlə birlikdə çalışmış, onunla mütəmadi birbaşa təmasda olmuş veteran əməkdaşların xatirələri yer alıb. Kitabın yazılmasında əsas məqsəd Ulu öndərin xüsusi xidmət orqanlarında çalışarkən xalqının rifahı və Azərbaycanın təhlükəsizliyi yolunda etdikləri ilə bağlı yeni məqamları ictimaiyyətin diqqətinə çatdırmaqdır.

Ümummilli liderin xüsusi xidmət orqanlarındakı fəaliyyətindən bəhs edən "Ulu öndər silahdaşlarının xatirələrində" adlı kitab "Heydər Əliyev - Azərbaycan təhlükəsizlik orqanlarının ilk azərbaycanlı generalı" adlı giriş hissəsi ilə başlanır.

Kitabın ən önəmli, unikal cəhəti burada indiyə kimi heç bir yerdə dərc olunmayan, vaxtilə təhlükəsizlik orqanlarında Heydər Əliyevin rəhbərliyi altında çalışmış veteran əməkdaşların üzərində Ulu öndərin imzası olan və onların şəxsi işlərində saxlanılan məxfi qrifli arxiv sənədlərinin, dahi rəhbərin bu təsisatda xidmət etdiyi vaxtlara aid fotoşəkillərin, o cümlədən Ümummilli liderin Rusiya təhlükəsizlik orqanlarının arxivində saxlanılan şəxsi işindən olan sənədli materialların, həmçinin Özbəkistan və Qazaxıstan təhlükəsizlik orqanları veteranlarının xatirələrinin yer almasıdır.

Cari il mayın 10-da DTX-də keçirilən Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş təntənəli tədbirdə təqdimatı baş tutmuş nəşrin "Ön söz"ünün müəllifi olan DTX-nin rəisi, general-polkovnik Əli Nağıyev kitabın ərsəyə gətirilməsinin əsas məqsədini aşağıdakı kimi açıqlayıb: "Ümummilli liderin 100 illik yubileyinin qeyd olunduğu ərəfəyə təsadüf edən bu kitabın hazırlanmasında əsas məqsəd Heydər Əliyev ideyalarının geniş təbliği, insanlara, xüsusən də gənc nəslə onun mənalı həyat və nümunəvi xidmət yolu barədə vaxtilə rəhbərliyi altında çalışmış, dahi şəxsiyyətin diqqət və qayğısını öz üzərilərində hiss etmiş, məsləhət və tövsiyələrindən bəhrələnmiş təhlükəsizlik orqanlarının veteranlarının və onların övladlarının hafizələrinə ömürlük həkk olunmuş unudulmaz xatirələri oxucularla bölüşməkdir".

Kitabda 42 veteran əməkdaşın Heydər Əliyevlə bağlı bölüşdükləri xatirələri, müxtəlif zamanlarda dövri mətbuatda dərc edilmiş məqalə və müsahibələri əks olunub.

Kitabda Heydər Əliyevin silahdaşları qürur hissi ilə paylaşdıqları xatirələrində Ulu öndərlə ilk tanışlıqlarından, aralarında mövcud olan rəhbər-işçi münasibətlərindən, onun əməkdaşlara diqqət və qayğısından, iş prinsipindən, geniş əməliyyat təfəkküründən, hadisələri qabaqcadan görə bilmək qabiliyyətindən, analitik və təhlil bacarığından ətraflı söhbət açırlar.

Onlar qeyd edirlər ki, məhz belə keyfiyyətləri sayəsində Heydər Əliyev mürəkkəb əməliyyat kombinasiyalarını uğurla həyata keçirir, qarşısında duran çətin tapşırıqların öhdəsindən layiqincə gələ bilirdi. Heydər Əliyevin təhlükəsizlik orqanlarında sıravi əməkdaşdan qurumun rəhbərinə, leytenant rütbəsindən general-mayor rütbəsinə kimi yüksəlməsi də sadalanan cəhətlərin müqabilində mümkün olmuşdu.




Qeyd olunub ki, Azərbaycan təhlükəsizlik orqanları məhz Ulu öndərin miras qoyduğu vətənpərvərlik irsi və peşəkarlıq məktəbi əsasında fəaliyyət göstərir, bu orqanlarda xidmət vaxtilə Heydər Əliyevin müəyyən etdiyi meyarlar üzərində inkişaf etdirilir. General-polkovnik Əli Nağıyev qeyd olunanları "Ön söz"də xüsusi vurğulayır: "Heydər Əliyevin şərəfli ömrünün 25 ilini həsr etdiyi Azərbaycan təhlükəsizlik orqanlarındakı fəaliyyəti, gələcək nəslə miras qoyduğu peşəkarlıq məktəbi xüsusi xidmət orqanlarının əməkdaşları üçün etalon olaraq qəbul edilir. Ulu öndərin millətə və dövlətə sədaqət amalları isə daima gənc zabitlərə aşılanır".

# Hayastanın “xilaskar ordusu”

## Qərbin “səlib” missiyası hansı hücumu dəf etməyə hazırlaşır?



**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**

**Qərbli dəstəkçiləri Ermənistana heç bir kömək edə bilmədiklərinə görə, indi süni şəkildə hay-küy qaldırırlar ki, bu gün-sabah Azərbaycan Ermənistana hücum edəcək. Həmin hücum olmadığı təqdirdə isə deyəcəklər ki, gördünüz, biz Ermənistanı, erməni xalqını bu təhlükədən xilas etdik. Halbuki, necə deyərlər, ortada nə ölən var, nə də öləni görən. Ona görə onlar faydasız işlərlə məşğuldurlar. Orada nədənsə danışırlar, amma Azərbaycanın hər hansı hücumu təşkil etməsi ilə bağlı bircə fakt da olsun göstərə bilmirlər. Əgər biz Türkiyə Ordusu ilə birgə hərbi təlimlər aparırıqsa, bunu heç kəsdən gizlətmirik. Belə birgə təlimləri ildə dörd-beş dəfə keçiririk. Bəli, Azərbaycan Ordusu Türkiyə Silahlı Qüvvələri ilə bir-birinə uyğun şəkildə fəaliyyət göstərir və bundan sonra da bu əməkdaşlığı davam etdirəcək. Bu əməkdaşlıq kiminsə xoşuna gəlmirsə, onun problemidir. Azərbaycan belələrinin açıqlamasına görə öz planlarından imtina etməyəcək.**

**Həqiqət ondan ibarətdir ki, Azərbaycanın Ermənistana hücum etmək kimi planı, niyyəti yoxdur. Cənab Prezident çıxışında aydın şəkildə bildirdi ki, bəli, biz Zəngəzura qayıdacağıq, amma tanklarla deyil, öz avtomobillərimizdə gedəcəyik. Yəqin “day-dayıları” ermənilərin gözünü qorxutmaq istəyirlər ki, sonra da özlərini xilaskar kimi göstərsinlər...**

(əvvəli 1-ci səhifədə)

İrəvanın boynuna qoyulan əsas öhdəlik isə Rusiyanı Cənubi Qafqazdan çıxarmaqdır. Axı, Paşinyan məhz bu missiyanı, yəni, Moskvanı bölgədən çıxarmaq planını yerinə yetirmək öhdəliyini qəbul etdiyinə görə hakimiyyətə gəlmək şansı qazanmışdı. Amma Ermənistan hakimiyyətinin bu istiqamətdə addımlarını Moskva cavabsız qoymur. Əksinə, Kreml son vaxtlar Paşinyan iqtidarına açıq mətnlə xəbərdarlıqlar edir.

Ermənistan–Rusiya münasibətlərini gərginləşdirən əsas amil rolunu Avropa İttifaqının mülki missiyasının sərhədə yerləşdirilməsi oldu. İrəvanın bu addımı Moskvada o qədər də isti qarşılanmadı və Rusiya Xarici işlər naziri Sergey Lavrov “Ermənistan öz ərazisində KTMT-nin sülhməramlılarının yerləşdirilməsi əvəzinə Avropa İttifaqının mülki müşahidəçi missiyasının yerləşdirilməsinə üstünlük verir” şəklində münasibət bildirmişdi. Aİ-nin missiyasını “zərərli” adlandıran Lavrov bunun bölgədə “əlavə gərginlik yarada biləcəyini” bəyan etmişdi. Ehtiyata buraxılmış alman hərbçilərindən və fransız jandarmlarından təşkil olunmuş, əvvəlcə 40 nəfərdən ibarət yarı-mülki, yarı-hərbi monitorinq heyətinin sərhəd zonasına iki aylığa göndərildiyi deyilsə də, “missiya” bir ildir ki, oradadır.

* * *

Artıq Qərbin Ermənistana üz tutan mülki missiyalarının coğrafiyası genişlənməkdə, çeşidi isə artmaqdadır. Misal üçün, “Avropa İttifaqının Ermənistandakı mülki missiyanın gücləndirilməsi zərurəti” barədə özünün mikrobloqunda yazan Almaniya Bundestaqının xarici münasibətlər üzrə komissiyasının sədri Mixael Rot hesab edir ki, bu fəaliyyəti gücləndirmək lazımdır: “Avropa İttifaqının Ermənistandakı mülki missiya komandasına böyük təşəkkürlər edirik. Biz sərhəddə vəziyyəti sabitləşdirmək və Azərbaycanın Ermənistan ərazisinə mümkün hücumlarını üzə çıxarmaq məqsədilə bütün sərhəd boyu monitorinq aparmaqdan ötrü missiyanı operativ şəkildə gücləndirməliyik”.

Deməli, Azərbaycan Ordusu top-tüfənglə Hayastana “hərbi təcavüz” edəndə avropalıların “beynəlmiləl xilaskar ordusu” bunun qarşısını alacaq və “hücumu” dəf edəcək. Çox gözəl! Xeyirxah missiyadır, amma arxadan “xoruzun quyruğu” görünməsəydi. Doğrudanmı, Avropanın az qala bütün ölkələrindən toplanan “səlib döyüşçülərini” Ermənistana onun təhlükəsizliyini təmin etmək, xarici təcavüzdən qorumaq üçün gəlib? Yəni, Paşinyanın ərazisinə buraxdığı mülki missiyalar yalnız “müntəzəm patrul xidməti həyata keçirmək və vəziyyət haqqında məlumat verməklə” məşğul olur? Aİ-nin elan etdiyi sərhəd bölgələrində sabitliyə verəcəyi töhfənin xarakteri, ən əsası isə səmərəsi nədən ibarətdir?

**Ekspert rəyi**



**Asif NƏRİMANLI,**
**siyasi şərhçi**

**Avropada Fransanın başçılığı altında Azərbaycana qarşı cəbhə açmaq cəhdləri müşahidə edilir. Bundan rəsmi Parisin, o cümlədən, Avropa İttifaqının məqsədi Cənubi Qafqazda öz maraqlarını təmin etməkdir. Əsas hədəf, əslində, Rusiyadır. Qərb çalışır ki, Rusiyanı Cənubi Qafqazdan sıxışdırsın və bu planda Ermənistandan plasdarm kimi istifadə edir. Belə görünür ki, Rusiyanın Ermənistanın təhlükəsizliyində yerini zəiflətməyə çalışırlar. Rəsmi İrəvan Rusiyadan uzaqlaşmaq xəttini açıq şəkildə elan edib, Fransanın Ermənistanı silahlandırması da prosesin tərkib hissəsidir. Qərbin ermənipərəst siyasilərinin Azərbaycanın Ermənistana “hücum edə biləcəyi” iddiasını davamlı şəkildə tirajlaması isə hədəflərə nail olmaq üçün əsas ittihamlarını rəsmi Bakının üzərinə yönəltdiklərini göstərir. Bu iddiaların iki mümkün səbəbi var: Birincisi, Ermənistanın Rusiyadan və KTMT-dən uzaqlaşmasıdır. Fransa başda olmaqla, Qərbin bölgəyə gəlməsi üçün əsaslı səbəb lazımdır. İstisna deyil ki, bu məqsədlə sərhəddə təxribatlar törədilə, eskalasiya riski yaradıla bilər. Bu halda KTMT-nin, eləcə də təhlükəsizlik müttəfiqi olan Rusiyanın Ermənistanı qorumaq öhdəliyini yerinə yetirmədiyini əsas gətirərək, təşkilatdan çıxmaq, Fransaya sığınmaq addımı atıla bilər. “Azərbaycan hücum edəcək” feyki mümkün təxribatlardan öncə beynəlxalq ictimai rəyi formalaşdırmağa hesablanıb.**

**İkincisi, Azərbaycan–Ermənistan dialoqunu Qərb platformasında aparmağa sövq etməkdir. Bu da vasitəçiliyi Rusiyadan almağa və bölgədə təsir imkanlarını artırmağa hesablanıb. Qranada görüşü təsdiq etdi ki, Qərb platformasında gündəlik əsasən Ermənistanın mövqeyinə uyğundur və Azərbaycan xüsusilə Fransanın ermənipərəst siyasətinə görə bundan imtina edir. Görünür, uydurma iddialarla Azərbaycan haqqında mənfi rəy yaratmağa, rəsmi Bakıya təzyiq etməyə çalışırlar.**

Missiyanın fəaliyyətə başlamasından bir il keçdi, fəqət bu sualların cavabını bilən yoxdur. Yox, Bakı bu sualların cavablarını çox yaxşı bilir. Məqsəd Azərbaycanın boynuna “işğalçı erməniləri etnik təmizləməyə məruz qoyan ölkə”, indi də “işğalçı” damğasını vurmaqla, Qarabağa BMT-nin, yaxud başqa beynəlxalq təşkilatın mandatına malik hərbi missiyanın göndərilməsinə nail olmaqdır. Bundan ötrü Hayastanın həm Qərbdəki, həm də okeanın o tayındakı “qardaş və bacıları” tam səfərbərliyə alınır. Həmin dəstəyə Kanada da qoşulub. Bu barədə Aİ Şurasının Siyasi və Təhlükəsizlik Komitəsi qərar verib. Sual olunur: Aİ üzvü olmayan “amerikalı” Kanada hansı niyyətlə özünün agentlərini Ermənistan–Azərbaycan sərhədinə göndərir? Bizə məlumdur ki, hələ Qarabağ işğal altında olduğu dövrdə Kanada müxtəlif səviyyələrdə İrəvana dəstək verib, eləcə də Qərbin anti-Azərbaycan layihələrində yaxından iştirak edib. Artıq Qarabağ adlı problemin qalmadığını dünya qəbul edir, Ermənistanla sülh danışıqları aparılır. Bu təqdirdə adı çəkilən ölkələr hansı məramla şərti sərhəddə növbəyə düzülüblər? Onları bölgəyə gətirənin və rəhbərlik edənin Fransa olduğu hamıya məlumdur.

* * *

Azərbaycan Qarabağ və oradakı erməni sakinlərlə bağlı bütün addımlarını beynəlxalq hüquq və qoşulduğu konvensiyaların norma və prinsiplərinə riayət etməklə atıb. Məhz bu səbəbdən ölkəmizə qarşı Fransanın dirijorluq etdiyi “humanitar böhran”, “Laçın blokadası”, “aclıqla etnik təmizləmə” kimi siyasi şoular baş tutmadı və suveren Azərbaycan ədalətli mövqeyini beynəlxalq platformalarda və kürsülərdə sübuta yetirdi.

İndi Bakının İrəvanla ikitərəfli sülh dialoqunda təmas nöqtələri aradığı bir mərhələdə Azərbaycanı siyasi cəhətdən əsassız və səbatsız ittihamlarla nədəsə güzəştə getməyə məcbur etmək cəhdləri, sadəcə, gülüş doğurur. Amma, ağalarından ənamlarını almış “muzdlu təşviqatçıların” inadkarlığı sərhəd tanımır. Onların ruporuna çevrilmiş media qurumları isə feyk kampaniyasını davam etdirirlər. Belələrinin bayraqdarı rolunda “Politico” nəşri çıxış edir. “Azərbaycanın Ermənistana hərbi müdaxiləyə hazırlaşdığı barədə ABŞ Dövlət katibi Antoni Blinkenin xəbərdarlığını” xatırladan üzdəniraq nəşr indi də Bakının regional ambisiyalarının davam edəcəyindən dəm vurur. İndi bütün diqqətin Zəngəzur dəhlizinə yönəldiyini vurğulayan “Politico”-nun məqaləsindəki iddiaya görə, təhlükə ondan ibarətdir ki, “Azərbaycan Silahlı Qüvvələrinin bir addım atması Cənubi Qafqazda daha genişmiqyaslı münaqişənin alovlanmasına səbəb ola bilər. Çünki bu bölgədə Türkiyə, Rusiya və İran strateji maraqlara malikdir”.

Keçən əsrin axırlarından etibarən, xüsusilə də son üç ildə Bakıya qarşı çox planlar qurulub. Fəqət onların hamısı puç olub gedib. Bundan sonra da belə olacaq. Ən azı ona görə ki, regional oyunçular, xüsusilə də Rusiya və İran İrəvanın geosiyasi separatizmini qəbul etməyəcəklər. Digər tərəfdən, hazırda Cənubi Qafqazda Azərbaycanın iradəsinin əksinə hansısa siyasi plan qurmaq mümkün deyil. Rəsmi Bakının qətiyyətli imtinasından sonra Parisin vasitəçilik imkanlarının iflasa uğraması da bunun əyani sübutudur. Azərbaycan regionun problemlərinin məhz region çərçivəsində həlli edilməsi prinsipindən çıxış edir. İrəvan üçün isə görünən yeganə və ən doğru yol bununla barışmaqdan ibarətdir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Ermənistan üçün “fransız çətiri”



**Fransa Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində Zəfər çalaraq, ərazi bütövlüyünü bərpa etməsini və bu il keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində bütün ölkə üzərində suverenliyinin bərqərar olunmasını heç cür qəbul edə bilmir. Rəsmi Paris ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinə sahib çıxmasını, Qarabağın qaytarılması ilə Azərbaycanın tam olmasını, vahidliyini az qala özünün təhlükəsizliyinə təhdid kimi qiymətləndirir və bu işdən bərk narazılığını, kin-küdurətini, hirsini-hikkəsini müxtəlif yollarla təcəssüm etdirir. Fransanın Ermənistanın silahlandırılması istiqamətində atdığı addımlar da bunlardan biridir.**

Parisin indiyədək bölgədə yürütdüyü militarizasiya (hərbiləşdirmə) siyasəti Cənubi Qafqazda sülhün əldə olunması yolunda əsas maneə idi. İndi isə maneə olmaqdan çıxaraq təhlükəyə çevrilib. Fransa bu kimi addımlarla İrəvanı sülhə yaxınlaşmağa qoymur.

Bəllidir ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçilik təşəbbüsü kimi meydana çıxan və “Brüssel formatı” adı alan danışıqlar platforması qurulmuşdu. 2021-ci il dekabrın 14-dən etibarən “Brüssel formatı” çərçivəsində səmərəli görüşlərin keçirilməsinə başlanılmışdı. Bu görüşlərdə konkret məsələlər müzakirə olunur, tərəflər arasında fikir ayrılıqları yaradan məqamlar aradan qaldırılır, beləliklə, müəyyən nəticələr əldə edilirdi. Fransa ilk dəfə 2022-ci il oktyabrın 6-da Çexiyanın paytaxtı Praqada Avropa Siyasi Birliyinin I sammiti əsnasında “Brüssel formatı”nda keçirilən görüşə özünü dürtdü. Bununla da Fransa faktiki olaraq, Brüssel formatını pozdu.

Bunun nəticəsidir ki, oktyabrın 5-də İspaniyanın Qranada şəhərində Avropa Siyasi Birliyinin III sammiti çərçivəsində Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında keçirilməli olan görüş baş tutmadı. Azərbaycan Almaniya Kansleri Olaf Şoltsun da qatılacağı görüşdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakını təklif etdi. Ancaq məhz Makron bunun əleyhinə çıxdı. Nəticədə dövlət başçımız haqlı olaraq, görüşə qatılmadı.

Sonra Nikol Paşinyan “bəzi səbəbləri” əsas gətirərək oktyabrın 13-də Bişkekdə Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclasına qatılmaqdan imtina etdi. Paşinyan bununla həm də Rusiyanın vasitəçilik səylərinə qarşı çıxmış oldu. Eyni zamanda, İrəvanda bildirildi ki, onlar oktyabrın sonunda Brüsseldə keçiriləcək görüşə qatılmağa hazırdırlar. Dünən isə Azərbaycan və Ermənistan liderlərinin bu ay Brüsseldə görüşməyəcəkləri məlum olub. Bunu Avropa İttifaqının Gürcüstan böhranı və Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar bildirib. Klaarın sözlərinə görə, Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan vaxt azlığı ilə əlaqədar olaraq oktyabr ayının sonunda Brüsseldə görüşməyəcəklər. “Həqiqətən də, liderlərin Brüssel formatında üçtərəfli görüşü ilkin olaraq nəzərdə tutulduğu kimi, çox güman ki, ayın sonunda baş tutmayacaq. Azərbaycan və Ermənistan son bir neçə həftə ərzində sülh danışıqlarına, xüsusən də Aİ Şurasının prezidenti Şarl Mişelin rəhbərlik etdiyi Brüssel prosesinə sadiq olduqlarını açıq şəkildə bəyan ediblər. Biz indi Azərbaycan və Ermənistanla növbəti sammitin hazırlığına yönəlmiş məsləhətləşmələr keçiririk və gözləntilərimiz odur ki, daha əvvəl razılaşdırıldığı kimi, liderlər ən erkən fürsətdə görüşəcəklər”,– deyə Aİ-nin xüsusi nümayəndəsinin ofisindən bildirilib.

Qeyd etdiyimiz kimi, Fransanın təqsiri üzündən iki ölkə arasında danışıqlar prosesi faktiki olaraq, pozulmuş durumdadır. Ancaq Makron hökuməti bununla kifayətlənmir. Oktyabrın 23-də Parisdə iki ölkənin müdafiə nazirləri – Suren Papikyan və Sebastyan Lekornyu “Thales” şirkətinin istehsalı olan üç ədəd “GM 200” radarının alqı-satqısına dair müqavilə və gələcəkdə Fransanın “Mistral” yaxınmənzilli hava hücumundan müdafiə sistemlərinin tədarükünə dair anlaşma memorandumu imzalayıblar. Azərbaycan Ordusunun Qarabağın erməni azlığının yaşadığı hissəsindəki qanunsuz silahlı birləşmələri tərk-silah etməsindən sonra rəsmi Bakının sülh gündəliyini, reinteqrasiya planını irəli sürdüyü halda, Fransanın bölgəyə yenidən silah-sursat göndərməsi sülh prosesinə böyük zərbə, yeni münaqişələr üçün zəmin yaratmaqdır. Axı, Fransanın Ermənistanı kimə qarşı silahlandırması tamamilə göz qabağındadır.

Bununla belə, həm hərbi-siyasi ekspertlərin şərhlərində, həm də analitik yazılarda Fransa–Ermənistan hərbi-texniki əməkdaşlığına müəyyən dərəcədə skeptik yanaşılır. Parisin İrəvana tədarük edəcəyi silahlarla nəyəsə nail ola bilməyəcəyi vurğulanır. Qeyd olunur ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində Ermənistana vurduğu zərbənin aradan qaldırılması üçün hələ xeyli vaxt lazımdır.

Fransadan silah alınmasını şərh edən erməni politoloq Suren Surenyants bunu daxili siyasi piar adlandırıb. Bu barədə o, “Facebook” səhifəsində yazıb: “Ermənistan Fransadan üç ədəd “GM200” radiolokasiya stansiyası alacaq. Təbii ki, silah alışının şaxələndirilməsi müsbət haldır. Bununla belə, “GM200” məhdud imkanlara malik kəşfiyyat silahlarıdır. Ermənistan–Fransa hərbi-texniki əməkdaşlığı ətrafında yarana biləcək səs-küy və onun mənfi təsirlərinin yerdə əldə ediləcək nəticədən daha çox olacağını söyləmək çətin deyil. Mən qəti şəkildə əminəm ki, bu sövdələşmə hökumətimiz tərəfindən daha çox daxili siyasi piar məntiqi ilə istifadə olunacaq. Paris üçün isə bu mövzu daha geniş regional kontekstdə “vizit kartı”dır və onun siyasi nəticəsi kimi, bizdə daha bir mənəvi qələbə hissi yarana bilər”.

Bu xüsusda Caliber.az saytında yerləşdirilmiş təhlil də diqqəti cəlb edir. Yazıda “Ermənistan kifayət qədər baha başa gəlsə də, müdafiə siyasətini şaxələndirməyə niyə bu qədər can atır?” – sualına cavab olaraq bildirilir: “Görünür, buna son 3 il ərzində və əsasən 44 günlük müharibə zamanı Ermənistanın hava hücumundan müdafiə arsenalının, demək olar ki, 70 faizini itirməsi şərait yaradır. İrəvan əmin olub ki, hərbi-texniki baxımdan Bakıdan çox geri qalır”.

Qeyd edilir ki, fransız silahlarının yüksək qiymətini nəzərə alaraq, söhbət ən ucuz sistemlərin alınmasından gedir: “Ola bilər ki, onlar da kreditlə alınıb. Rusiyaya və ya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına gəldikdə isə güman etmək olar ki, əgər söhbət mürəkkəb silah sistemlərinin, məsələn, döyüş təyyarələrinin alınmasından gedirsə, o zaman KTMT çərçivəsində hava hücumundan müdafiə sistemlərinin əlaqələndirilməsi nəzərə alınmaqla bu amil maneəyə çevrilə bilər. Digər tərəfdən, Fransa Ermənistanı qısa zamanda regionda qüvvələr balansını dəyişdirəcək və ya orada mövcud olan Rusiya silahlarını əvəz edəcək qədər silahla təmin edə bilməz. Məsələn, Hindistan silahları fransız silahlarından daha çox rus silahlarına uyğunlaşdırılıb. Ona görə də Ermənistan silahlı qüvvələrində fransız silahlarının strateji əhəmiyyəti olmayacaq. Azərbaycan üçün bu fakt heç nəyi dəyişməyəcək. Azərbaycan ordunun modernləşdirilməsinə və müasir silah sistemlərinin alınmasına inkişaf etmiş İsraildən dəfələrlə çox vəsait ayırır”.



**Mövzu ilə bağlı fikirlərini “Xalq qəzeti” ilə bölüşən hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov deyib ki, Fransanın bu addımı bölgədə vəziyyəti daha da gərginləşdirməyə yönəlib.** Onun sözlərinə görə, Fransa Cənubi Qafqazda tutduğu mövqenin sülhə və əmin-amanlığa xidmət etmədiyini növbəti dəfə sübut edir: “Mən düşünmürəm ki, iki ölkə arasında imzalanmış sənəd Ermənistan ordusunu birdən-birə gücləndirəcək. Əlbəttə, müəyyən təhlükə olduğunu başa düşürük. Biz bunun fərqindəyik. Amma bu silahların istifadəsini mənimsəmək və onların peşəkarlıqla tətbiqi xeyli vaxt tələb edir. Bu mənada qüvvələr nisbətində bərabərlik yaranacağını düşünmürəm. Vətən müharibəsi zamanı Ermənistan ordusu sarsıdıcı zərbə alıb. Onun ordusunu normal vəziyyətə gətirmək üçün illər lazımdır, çoxlu təlimlər keçirilməlidir”.

Üzeyir Cəfərov qeyd edib ki, bununla Fransa öz mövqeyini açıq şəkildə bəyan edir: “Biz də bu mövqedən çəkinməməliyik. Biz də Silahlı Qüvvələrimizin gücləndirməli, onun arsenalında olan silah-sursatın çeşidini və həcmini artırmalıyıq. Peşəkarlığımızı artırmalıyıq. Təlimlər keçirilir. Plana uyğun olaraq, həm öz təlimlərimiz, həm Türkiyə ilə ikitərəfli, həm də Türkiyə və Pakistanla üçtərəfli təlimlər baş tutur. Dünya hərb institutlarının açıqlamalarında da Azərbaycan Ordusunun Ermənistan ordusundan qat-qat üstün olduğu görünür. Bu, əlbəttə, bizim iqtisadi imkanlarımız sayəsində mümkün olub”.

Hərbi ekspert bildirib ki, Fransanın bu addımı Ermənistanı müəyyən revanşist, yaxud təxribatçı addımlara sövq edəcək: “Nə edirlərsə-etsinlər, bizim Slahlı Qüvvələrimiz və xalqımız buna hazırdır. Fransanın bu addımı onun Azərbaycanla münasibətlərinin daha da zəifləməsinə gətirib çıxaracaq. Bundan da itirən yalnız Fransa olacaq. Azərbaycan indiyədək Fransa ilə dostluq və tərəfdaşlıq münasibəti qurmağa həm səy göstərib, həm də bunu konkret addımlarla sübut edib. Amma Fransanın Ermənistanı son vaxtlar silah-sursatla təchiz etməsi onun heç də xoş niyyətindən xəbər vermir”.



**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə bildirib ki, Ermənistan İkinci Qarabağ müharibəsində böyük zərbə alıb,** hərbi texnikasının böyük hissəsini itirib, şəxsi heyətdən də xeyli itkilər olub. İndi isə İrəvan bunların yerini doldurmağa çalışır: “Ermənistan Rusiyadan hərbi texnika ala bilmir. Çünki Rusiyanın özünə lazımdır. Moskva Ukraynada müharibə aparır. Rusiya özü hazırda başqa ölkələrdən silah-sursat alır. Hətta, Şimali Koreyadan raket almağa çalışır, İrandan keyfiyyəti yüksək olmayan dronlar alır. Ona görə də Ermənistan bu vəziyyətdə axtarışa çıxıb ki, görək, kimdən nə ala bilər. Hindistandan bir az nəsə alıb. İndi Fransadan alır”.

Elxan Şahinoğlu hesab edir ki, Fransadan alacaqları hayların problemlərini həll etməyəcək: “Fransa bununla təxribatçı siyasətini davam etdirmək istəyir. Prezident İlham Əliyev haqlı olaraq bildirib ki, əgər bir gün yenə də Ermənistanla Azərbaycan arasında müharibə başlasa, bunun təqsirkarı Fransa olacaq”.

Müsahibimiz qeyd edib ki, Fransanın Ermənistana silah satması Azərbaycanın manevr imkanlarını da genişləndirəcək: “Birinci Qarabağ müharibəsindən sonra Avropa dövlətlərinin Azərbaycana və Ermənistana silah satışına qeyri-rəsmi qadağası var idi. Fransa faktiki olaraq, bu qadağanı pozdu. Deməli, Avropa ölkələrindən silah-sursat almaqda bizə heç nə mane olmur. Məsələn, bizim İtaliya ilə danışıqlarımız var. Onların hərbi təyyarələrinə maraq göstəririk. Bu, Fransanın xoşuna gəlməyəcək. Fransa İtaliyaya təzyiq edə bilməz. İtaliya deyə bilər ki, sən Ermənistana silah satırsansa, mən Azərbaycana niyə hərbi texnika sata bilməyim?!”

Politoloq hesab edir ki, Fransanın Ermənistana silah-sursat satmasından çox da ehtiyatlanmağa dəyməz: “Əlbəttə, biz Fransanın siyasətini tənqid etməliyik. Amma biz hazırda əsas silah-sursatı Türkiyə və İsraildən alırıq. Bu çeşidi artıra bilərik. Şərqi Avropada da müasir silahlar istehsal edən Polşa, Çexiya kimi ölkələr var. Onlarla danışıqlar aparıb bizə lazım olan silah-sursatı ala bilərik”.

***Səxavət HƏMİD***
***XQ***

# Sənaye parkları – müasir istehsala keçid

## Son 7 ildə bu sahəyə 5,6 milyard manatlıq kapital yatırılıb

**Son illər ölkəmizdə qeyri-neft sənayesinin inkişafının daha da sürətləndirilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı layihələr sırasında dövlət başçısının təşəbbüsü ilə sənaye zonalarının– sənaye parkları və məhəllələrinin yaradılması mühüm əhəmiyyət daşıyır.**

Bu məqsədlə indiyədək respublikada 7 sənaye parkı (Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və Cəbrayıl rayonunda “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları) və 5 sənaye məhəlləsi (Neftçala, Masallı, Hacıqabul, Sabirabad və Şərur sənaye məhəllələri) istifadəyə verilib.

Sənaye zonalarında ötən müddət ərzində, ümumilikdə, 10,23 milyard manatlıq məhsul istehsal edilib və onun 3,35 milyard manatlıq hissəsi ixrac olunub. Cari ilin birinci yarısında isə bu müəssisələrin satdığı 1,4 milyard manat dəyərində məhsulun 33,2 faizi, yəni 470,6 milyon manatlığı ixraca yönəldilib. Bu dövrdə sənaye zonalarının qeyri-neft sektorunda xüsusi çəkisi isə 16,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə 20,7 faiz (470,6 milyon manat) olub. Ötən 9 ayda sənaye zonalarının müəssisələrində məhsul istehsalının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 7 faiz artaraq 2,3 milyard manata çatıb. Bunun da 31,2 faizi 50-dən artıq ölkəyə satılıb.

Sənaye parklarında sahibkarların biznes fəaliyyətini stimullaşdıran, onların vergi və gömrük güzəştləri əldə etməsi üçün əlverişli şərait yaradan və 2016-cı ildən tətbiqinə başlanılan investisiya təşviqi mexanizmi çərçivəsində 7 ildən artıq bir müddətdə 583 layihə təşviq olunub. Həmin layihələrin icrası nəticəsində iqtisadiyyata 5,6 milyard manatdan çox investisiya yatırılıb, 38,6 mindən artıq iş yerinin yaradılması nəzərdə tutulub. İndiyədək dəyəri 1,8 milyard manatdan artıq olan texnika, texnoloji avadanlıq və qurğular güzəştli şərtlərlə ölkəyə idxal edilib və müasir istehsal sahələri qurulub.

Təşviq edilmiş layihələrin icrası nəticəsində respublikada yeni məhsullar buraxan müəssisələr yaradılıb. Prezident İlham Əliyevin 20 dekabr 2022-ci il tarixli müvafiq fərmanı ilə əvvəlki illərin təcrübəsi nəzərə alınmaqla investisiya təşviqi mexanizmi təkmilləşdirilib. Bu sənəd cari il yanvarın 1-dən 3 il müddətində sənaye məhəlləri, aqroparklar, turizm və rekreasiya zonaları, həmçinin müvafiq ərazilərdə həyata keçirilən layihələrə, eləcə də dövlət başçısı tərəfindən müəyyənləşdirilən istiqamətlər üzrə strateji təşəbbüslərə verilib.

Yeni meyarlara ekoloji baxımdan mühüm önəm daşıyan tullantıların təkrar emalı fəaliyyət sahəsi də əlavə olunub, eyni zamanda, turizm istiqamətli fəaliyyət sahələri genişləndirilib. Mexanizm çərçivəsində layihələr üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğuların əhatə dairəsinin dəqiqləşdirilməsi məqsədilə mal mövqelərinin siyahısı təsdiqlənib.

Prezident İlham Əliyev oktyabrın 23-də Sumqayıt Kimya Sənaye Parkında yeni müəssisələrin açılış və təməlqoyma mərasimlərində iştirak edib. Xatırladaq ki, bu sənaye parkı dövlət başçısının 2011-ci il 21 dekabr tarixli fərmanı ilə yaradılıb.

Ölkəmizdə qurulan ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkının hazırda ərazisi 583,5 hektar təşkil edir və burada neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı, həmçinin emalı müəssisələri fəaliyyət göstərir. Parkda ümumi investisiyaların həcmi, təqribən, 5,8 milyard manat təşkil edir. “Azərbaycan Vanhong Ceramics Co.” MMC, “Novus Plastica” MMC və “UPI–Universal Packing Industry” QSC-nin açılışı ilə sənaye parkında fəaliyyət göstərən müəssisələrin sayı 23-ə çatır.

Parkda ümumi investisiyalarının həcmi təqribən 5,8 milyard manata yaxın 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək rezidentlər tərəfindən sənaye parkına 5,4 milyard manatdan çox investisiya yatırılıb. Artıq qeydiyyata alınmış 38 rezidentdən 23-ü fəaliyyətə başlayıb. Parkın rezidentləri tərəfindən, ümumilikdə, 9,5 milyard manatlıq satış həyata keçirilib ki, onun da 3,3 milyard manatdan çox hissəsi, təqribən, 34,7 faizi ixracın payına düşüb.

Sənaye parkında 2023-cü ilin 9 ayında 2,1 milyard manatlıq məhsul istehsal olunub. Bunun da 674,4 milyon manatlıq (32,1 faiz) hissəsi ixraca yönəldilib. Hazırda sənaye kompleksində 6 min 600 nəfərdən çox şəxs daimi işlə təmin olunub. Bundan əlavə mövcud layihələr üzrə parka əlavə olaraq 394 milyon manatdan artıq investisiyanın yatırılması, 2 mindən çox daimi iş yerinin yaradılması nəzərdə tutulub.

Parkda istehsal olunan məhsullar Türkiyə, Rusiya, Ukrayna, Belarus, Çin, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Niderland, İtaliya, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Livan, İraq, Yaponiya, Amerika Birləşmiş Ştatları, Kanada və digər ölkələrə ixrac olunub.

Dövlət başçısının Sumqayıta indiki səfəri zamanı sözügedən parkda təməli qoyulan 2 müəssisə–“Çinar-Servis” İKF və “Kartaş Kimya” müəssisələrinin 2024-2025-ci illərdə fəaliyyətə başlaması planlaşdırılır. Həmin müəssisələr tərəfindən parka, ümumilikdə, 30 milyon manatdan artıq investisiyanın yatırılması, 300-dən çox isə daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Ağdam Sənaye Parkının da qurulması sürətlə həyata keçirilir. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən tədbirdə bildirib ki, parkın 19 rezidenti, 6 qeyri-rezidenti var. İnvestorlar tərəfindən müəssisəyə 176 milyon manatdan çox sərmayə yatırmaq, 1600-dən çox daimi iş yeri yaratmaq planlaşdırılır. İndiyədək 12 milyon manata yaxın investisiya qoyulan sənaye parkının ilk müəssisəsinin gələn il fəaliyyətə başlaması gözlənilir.




Parkın rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

Həmçinin bu il yanvarın 1-dən Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, işğaldan azad olunan ərazilərdə fəaliyyət göstərəcək sahibkarlara əlavə güzəştlər tətbiq edilir. Bura sosial sığorta haqlarının subsidiyalaşdırılması, düşməndən təmizlənən yaşayış sahələrində məskunlaşaraq işləyən mütəxəssislərə hər il 5 gün əlavə məzuniyyət verilməsi, aylıq vəzifə maaşına əlavələrin hesablanması, 600 manat birdəfəlik müavinət verilməsi, iş icazələrinin alınmasının sadələşdirilməsi kimi imtiyazlar daxildir. İşğaldan azad olunan ərazidə fəaliyyət göstərən sahibkarın istehsal prosesində istifadə edəcəyi bir sıra xammal və materialların idxalı da 10 il müddətinə ƏDV-dən azad olunur.

Bütün bunlarla bərabər, istehsalçı sahibkarların10 il müddətində hər ay istehlak olunan kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun ödədikləri vəsaitin 20 faizi dövlət büdcəsinin vəsaiti hesabına geri qaytarılır.

***Vaqif BAYRAMOV***
***XQ***

# İsveç şirkəti dəmir yolu xidmətini yeniləşdirəcək

## “Stadler” Regional Servis Mərkəzi yaradır

**“Azərbaycan Dəmir Yolları” QSC (ADY) və İsveçrənin “Stadler Rail Group” şirkəti arasında dəmir yolu nəqliyyatı vasitələrinin təmiri, texniki qulluq və konsultasiya üzrə xidmətlərin göstərilməsinə dair müqavilə imzalanıb.**



ADY-dən aldığımız məlumata görə, imzalanan müqaviləyə əsasən, Böyükşor ərazisində Regional Servis Mərkəzi tikiləcək və “Stadler” şirkəti tərəfindən həmin mərkəzin tikintisi üçün investisiya yatırılacaq.

Bu mərkəzin əhəmiyyəti ondan ibarətdir ki, hazırda dəmir yollarında geniş istifadə olunan “Stadler” markalı bütün növ nəqliyyat vasitələrinin təmiri və texniki xidmət məhz burada həyata keçiriləcək. “Stadler” qatarlarına texniki dəstəyin göstərilməsi həmin nəqliyyat vasitələrinin hazırlıq əmsalının 95 faizdən çox olmasını təmin edəcək. Eyni zamanda, mərkəzdə ADY-nin işçi heyətinə bütün növ lokomotivlərin təmir olunması ilə bağlı bilik və bacarıqlarının təkmilləşdirilməsi baxımından dəstək və məsləhət veriləcək.

Məlumatda bildirilir ki, Azərbaycan ərazisində belə bir unikal müəssisənin yaradılması regionda qonşu ölkələrdə istismar edilən “Stadler” hərəkət tərkibinin irihəcmli təmirinin həyata keçirilməsinə imkan yaradacaq.

Qeyd edək ki, ADY tərəfindən “Stadler Rail Group” şirkətindən sifariş edilən “KISS” markalı ikimərtəbəli elektrik qatarları ilk dəfə Azərbaycana 2015-ci ildə gətirilib. Hazırda Azərbaycanın dəmir yollarında 9 ədəd “KISS” elektrik qatarı istifadədədir.

***XQ***

# Gömrükdə inkişaf modeli

**Dövlət Gömrük Komitəsi (DGK) özünün yeni inkişaf modelini hazırlayıb. DGK-dan bildirildiyinə görə, bu model 7 əsas komponenti (istiqamət, novator, keyfiyyət, işgüzar, şəffaf, asan, faydalı) əks etdirir.**




Yeni Gömrük İnkişaf Modelinə görə, əsas məqsəd düzgün istiqamətdə hərəkət etmək, novator olmaq, keyfiyyətə diqqət yetirmək, işgüzar davranıb vətəndaşlar və biznes subyektləri üçün şəffaf, asan və faydalı gömrük həlləri ərsəyə gətirməkdir. Artıq yeni modelin mahiyyəti və məğzi barədə məlumat vətəndaşlar və sahibkarlara əlçatan olması üçün müxtəlif ticarət və ictimai iaşə yerlərində yerləşdirlib.

Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar fonunda DGK-nın belə bir modelə keçməsi aparılan şəffaflaşma prosesinin tərkib hissəsi və islahatlara mühüm töhfə kimi qiymətləndirilir. Gömrük orqanlarında həyata keçirilən rəqəmsallaşma və şəffaflaşma prosesində indiyə qədər 10-a yaxın layihənin icrası tamamlanıb.

# İnfrastruktur genişləndirilir

**İqtisadiyyat naziri Mikayıl Cabbarov “X” sosial şəbəkəsindəki hesabında cari ilin yanvar-sentyabr aylarında ölkədə məhsul istehsalı və xidmət sahələrinə qoyulmuş investisiyaların məbləğinin ötən ilin eyni dövrünə nisbətən müvafiq olaraq 20,8 faiz və 27,4 faiz çox olduğunu bildirib.**




Xatırladaq ki, 9 ay ərzində ölkədə əsas kapitala 12 milyard 729 milyon manat və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 21,3 faiz çox vəsait yönəldilib. Son 1 ildə neft-qaz sektoruna investisiyalar 18,1 faiz, qeyri-neft-qaz sektoruna investisiyalar isə 23,2 faiz artıb.

# Bankların aylıq gəliri 303 milyon manata çatıb

**Mərkəzi Bankın məlumatına görə, 2023-cü ilin sentyabr ayında ölkəmizdə fəaliyyət göstərən banklar 303 milyon manat faiz gəliri əldə ediblər.**

Bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 25,8 faiz və ya 62,1 milyon manat çoxdur. 2022-ci ilin sentyabr ayında isə banklar 241 milyon manat faiz gəliri əldə ediblər.

Qeyd edək ki, hesabat dövründə bankların əməliyyat mənfəətləri 164 milyon manat, xalis mənfəətləri isə 109 milyon manat təşkil edib.

***XQ***

# Azərbaycan “qlobal hədəflər”in regional lideridir

## BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ölkəmizdə uğurla həyata keçirilir

**(əvvəli 1-ci səhifədə)**

Çıxışlarda işğaldan azad olunmuş yaşayış sahələrinin bərpası istiqamətində qlobal inkişaf prioritetlərinin nəzərə alındığı, ancaq mina təhlükəsinin bu ərazilərin sürətli reinteqrasiyasında başlıca maneəyə çevrildiyi də xatırladılıb. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev tərəfindən minatəmizləmə fəaliyyətinin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi BMT-nin 2030 Gündəliyinə əlavə olunması təşəbbüsü irəli sürülüb və bununla bağlı müvafiq layihə hazırlanaraq, yerli və beynəlxalq ictimaiyyətə təqdim edilib.

Tədbirin sonunda bildirilib ki, pandemiyanın hələ də davam etməsinə, həmçinin geosiyasi gərginliklərin dayanıqlı inkişafı zəiflətdiyinə baxmayaraq Azərbaycan 30 ilə yaxın işğal altında qalan torpaqlarını düşməndən təmizlədikdən sonra həmin ərazilərin bərpa və yenidən qurulmasını, insanların doğma yurdlarına geri qayıtmasını başlıca hədəf kimi qəbul edib. Bu proses BMT-nin dayanıqlı inkişaf planına uyğun olaraq həyata keçirilir.

Ölkəmizdə DİM-in icrasından danışarkən bir məqama da toxunmağı zəruri hesab edirik. Ekspertlərin fikrincə, dayanıqlı inkişaf məqsədlərini reallaşdırmaq üçün dünyada ÜDM-in 1,5–4 faizi qədər resurs tələb olunur. Biznes strukturlarının dayanıqlı inkişaf sahəsində dövlət təşəbbüslərinə cəlb olunmasının vacibliyi də məhz bununla əlaqələndirilir. DİM-də informasiya əlçatanlığı, məlumatların toplanılması, monitorinqi və hesabatlılığı dayanıqlı inkişaf üçün ən mühüm elementlər kimi dəyərləndirilir.

Ümumiyyətlə, beynəlxalq qurumların məlumatına görə, 17 DİM-in 8-i mühasibat uçotu, hesabatlılıq və o cümlədən auditlə birbaşa əlaqədardır. Başqa sözlə, mühasiblər və auditorlar DİM-nin reallaşmasında mühüm rola malikdir. Bununla yanaşı, mühasibat uçotunun və auditin də korporativ dayanıqlı inkişafın yeni tələblərinə uyğun olaraq transformasiyası günümüzün tələbləri sırasındadır. Məhz mühasibat uçotu və auditin birbaşa təsiri ilə dayanıqlı inkişafın təhsilin keyfiyyəti, gender bərabərliyi, ləyaqətli əmək və iqtisadi artım, məsuliyyətli istehlak və istehsal, bərabərsizliyin azaldılması, təhlükəsizlik, iqlim dəyişikliyi, ekosistemin qorunması, güclü institutların yaradılması və əməkdaşlıq kimi Dayanıqlı İnkişaf Məqsədləri reallaşa bilər.

Yeri gəlmişkən, BMT-nin 2016–2030-cu illər üçün təsdiqlənmiş “2030 Gündəliyi” üzrə Azərbaycanın qəbul etdiyi öhdəliklərin həyata keçirilməsi bu gün ölkəmizin dövlət siyasətinin mühüm tərkib hissələrindən birinə çevrilib. Bu istiqamətdə sosial, iqtisadi, ətraf mühit sahələri ilə bağlı dövlət proqramları, startegiyalar, tədbirlər planları DİM-in hədəflərinə uyğunlaşdırılıb.

Xatırladaq ki, BMT-nin Baş Assambleyasının qəbul etdiyi 17 məqsəd təşkilatın 2015-ci ilin sentyabr ayında keçirilmiş sammitində dünya liderlərinin qəbul etdiyi “2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”də əks olunub, 2016-cı il yanvarın 1-də rəsmi şəkildə qüvvəyə minib. Universal xarakter daşıyan bu yeni məqsədlər fonunda 2030-cu ilə qədər ölkələri yoxsulluğun bütün formalarına son qoymaq, bərabərsizliklərə qarşı tədbirlər görmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq məqsədi ilə bütün səylərini səfərbər etmək nəzərdə tutulub.



“Qlobal məqsədlər” kimi də tanınan DİM-lər Minilliyin İnkişaf Məqsədlərinin əldə etdiyi nəticələrə əsaslanır, eyni zamanda, yoxsulluğun bütün formalarının aradan qaldırılmasını qarşıya mühüm vəzifə kimi qoyur. Yeni DİM-lərin özünəməxsusluğu bütün dövlətləri, o cümlədən yoxsul, zəngin və orta gəlirli ölkələri planetin mühafizəsini reallaşdırmaq şərti ilə tərəqqini təşviq etmək üçün tədbirlər görməyə səsləyir.

DİM-lərin tətbiqi təsdiqləyir ki, yoxsulluğun aradan qaldırılması iqtisadi artımın təmin edilməsinə yönələn strategiyalarla əlaqəli şəkildə həyata keçirilməlidir. Onlar təhsil, sosial müdafiə və məşğulluq imkanları da daxil olmaqla geniş spektrli sosial ehtiyacları və bununla yanaşı, iqlim dəyişikliyi ilə mübarizəni və ətraf mühitin mühafizəsini ön plana çəkir.

Sonda xatırladaq ki, Azərbaycan 2022-ci ildə dayanıqlı inkişaf məqsədləri indeksinə görə Cənubi Qafqaz regionunda lider mövqe, dünyanın 163 ölkəsi arasında isə 50-ci yeri tutur. Bu göstəricinin əldə olunmasına isə ölkəmizdə alternativ enerji mənbələri, ətraf mühitin mühafizəsinin təmin edilməsi və tullantıların təmiz emalı, habelə “yaşıl iqtisadiyyat”a keçid üzrə layihələrin reallaşdırılması imkan yaradır.

Artıq bu gün Azərbaycanda bərpaolunan enerji mənbələri sektoruna milyon dollarla investisiyalar qoyulur, ölkənin investisiya iqliminin daha da yaxşılaşdırılması, birbaşa xarici investisiyaların cəlb olunması və DİM-in gerçəkləşdirilməsi məqsədilə ölkənin tam potensialının araşdırılması üzrə işlər aparılır.

***XQ***

Naxçıvan

# Qədim diyarın torpağı bar-bəhrəsini artırır

## Əkinlər genişləndirilir, məhsuldarlıq yüksəldilir



**Naxçıvan Muxtar Respublikasında son dövrlər meyvəçilik, tərəvəzçilik və üzümçülük üzrə innovativ texnologiyaya əsaslanan yeni fabrik, həmçinin emal müəssisələrinin yaradılması, müxtəlif çeşidli konservləşdirilmiş məhsulların istehsalının artırılması və ixrac məhsullarının genişləndirilməsi, üzümçülük üzrə sənaye miqyasında qurudulmuş üzüm məhsulları, səbzə mövüc, kişmiş və şirə istehsalının genişləndirilməsinə diqqət artmaqdadır.**

Bölgədə üzümçülüyün geniş perspektivləri var. Üzüm sortlarının zəngin genefondu həm daxili bazar, həm də ixrac üçün süfrə üzümünün yetişdirilməsinə və yüksək keyfiyyətli şərabçılıq sənayesinin inkişafına geniş imkanlar açır. Meyvəçiliyin, tərəvəzçiliyin və üzümçülüyün genişləndirilməsində istehsalçı-alıcı-satıcı şəbəkəsinin təşkil olunması, istehsal olunan məhsulların şəhər və kəndlərdə, xırda və iri ticarət şəbəkələrində pərakəndə satışlarının təşkilində dövlət dəstəyinin göstərilməsi daha çox faydalı olar. Eyni zamanda meyvə, tərəvəz və üzüm məhsullarının xarab olmaması məqsədilə mövcud 30-dan çox saxlama kamerasının imkanlarından geniş istifadə imkanları yaradılmalıdır.

Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində kartof və dib soğan istehsalı strateji əhəmiyyət kəsb edir. Yaxşı haldır ki, son illərdə bu sahədə əhəmiyyətli irəliləyiş müşahidə olunur. 2022-ci ildə 3 min 481 hektar sahədə kartof əkini aparılıb, sahələrdən 54 min 998 ton məhsul yığılıb. Ötən il muxtar respublika üzrə 88 min 34 ton tərəvəz istehsal olunub.

Bölgədə strateji əhəmiyyət daşıyan taxıl məhsullarının istehsalının artırılmasına daha çox diqqət yetirilməlidir. Hazırda Naxçıvanda ümumi əkin sahəsinə görə, dənli və paxlalı bitkilər 35 min 792 hektar təşkil edir. Muxtar respublika ərazisinin təbii torpaq-iqlim şəraiti yüksək məhsuldar və keyfiyyətli taxıl sortlarının əkilməsinə imkan verir.

Qeyd edək ki, son illərdə bölgədə 32 min 721 hektardan çox sahədə taxıl əkilib, zəmilərdən 103 min 372 tondan artıq məhsul tədarük edilib. Ancaq bu taxılın əksəriyyəti yemçiliyə yararlı olub. Toplanılan məhsulun 70 min tona qədərini buğda təşkil edib. Ona görə də fermerlər tərəfindən tətbiqyönümlü "Mirbəşir-50", "Qaraqılçıq-2", "Tərtər", "Vüqar", "Şiraslan-23", "Tərtər-2", "Yaqut", "Bərəkətli-95", "Turan", "Əlincə-84", "Qırmızı gül-1", "Qobustan", "Ləyaqətli", "Murov-1" və digər rayonlaşdırılmış perspektivli standart bərk və yumşaq buğda sortlarından tədatük edilən məhsuldan çörək bişirilməsində istifadə olunmasının təşkili strateji baxımdan mühüm əhəmiyyət daşıyır.

Bölgədə paxlalı bitkilərin ümumi əkin sahəsi 970 hektardan çoxdur. Muxtar respublikanın dağlıq, dağətəyi, düzənlik coğrafi ərazilərində paxlalı bitkilərin (noxud, lobya, soya və digər) becərilməsi üçün fermer, ailə təsərrüfatlarına hər cür dövlət dəstəyinin göstərilməsi, təbii şəraitə uyğun sort tərkibinin müəyyənləşdirilərək əkilməsi, bu işdə yüksək məhsuldar sortlardan istifadə olunması, istehsal edilən rəqabətədavamlı məhsulun bazarlarda satışında rast gəlinən maneələrin aradan qaldırılması həllini gözləyən problemlərdən biridir. 2022-ci ildə Naxçıvanda paxlalı bitkilərin istehsalı 6 min 589 ton təşkil edib.

Bostançılığın genişləndirilməsi bölgədə prioritet məsələlərdən biridir. Bu sahənin genişləndirilməsi, nəzarətinə yüksək ixtisaslı mütəxəssislər cəlb edilməli, ekoloji təmiz qarpız, qovun, xiyar və digər məhsulların istehsalına nail olunmalıdır.

Muxtar respublikada suvarma suyuna tələbat ildən-ilə artmaqdadır. Bölgədə irili-xırdalı çoxsaylı çaylar mövcuddur. Həmin çayların üzərində müxtəlif həcmli sututarların yaradılması əkin sahələrinin suvarma suyuna olan tələbatının ödənilməsində mühüm rol oynaya bilər. Bu gün Culfa rayonunun Qazançı kəndində Əlincə çayı üzərində strateji əhəmiyyətli su anbarının tikilməsi öz həllini gözləyir.

Qeyd edək ki, muxtar respublika florasında mövcud olan müxtəlif çeşidli müalicəvi və qida əhəmiyyətli yabanı tərəvəz bitki növləri, meyvə, giləmeyvə və digər faydalı bitkilərdən səmərə əldə edilməsi məqsədilə ixtisaslaşdırılmış tədarük məntəqələrinin yaradılması, yığılmış məhsulların satın alınması, daxili və xarici bazarlara çıxarılması üçün dövlət dəstəyi əsasında müvafiq özəl fermer təsərrüfatlarının təşkilinə də böyük ehtiyac duyulur.

Bölgədə heyvandarlığın, quşçuluğun genişləndirilməsi əhalinin ət məhsullarına olan ehtiyaclarının dolğun ödənilməsi üçün yemçilik üzrə (arpa, yemlik taxıl, tritikale, yonca və s.) fermer və ailə təsərrüfatlarının genişləndirilməsinə, həmçinin arıçılıq üzrə ailə təsərrüfatlarının artırılmasına, heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına tələbat da ildən-ilə artmaqdadır.

Bölgədə qədim ənənələrə malik olan baramaçılığın yenidən inkişaf etdirilməsi bu sahə üzrə ixtisaslasdırılmış ailə və fermer təsərrüfatlarının dövlət dəstəyi əsasında təşkil edilməsi, həmçinin tut ipəkqurdunun yemlənməsi və yüksək keyfiyyətli barama məhsulunun əldə olunması üçün Azərbaycanda geniş istifadə olunan "Xanlar-tut", "Zərif-tut" və başqa seleksiya sortlarının, o cümlədən yemləmə məqsədilə digər tut sortlarının xaricdən alınıb gətirilməsi yüksək barama məhsulunun əldə olunmasına şərait yaradar. Nəticədə, Ordubad ipəkçilik fabrikinin işə salması reallığa çevrilər və yeni iş yerləri açılar.

Son vaxtlar muxtar respublikada əhalinin sağlamlığının qorunması üçün mühüm dövlət tədbirləri həyata keçirilir. Ancaq bölgədə müxtəlif çeşidli meyvə, tərəvəz, üzüm, bostan bitkiləri və digər məhsulların yetişdirilməsində dövlət nəzarətindən kənar, ayrı-ayrı şəxslər tərəfindən pestisid, funqisid, herbisid, həmçinin digər tərkibli kimyəvi dərmanlar bölgəyə gətirilərək pərakəndə satışı təşkil olunur. Həmin vasitələrdən heç bir fitosanitar və zoosanitar qaydalara riayət olunmadan, mütəxəssis rəyi nəzərə alınmadan kortəbii şəkildə mübarizə məqsədilə istifadə edilir. Nəticədə, bu və ya digər dərəcədə kimyəvi maddələrlə zəhərlənmiş məhsullar satışa çıxarılır. Belə zəhərlənmə hadisələri, demək olar ki, hər ilin meyvə, tərəvəz mövsümü dövründə baş verir. Bu halların qarşısının alınması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi müvafiq tədbirlər görməlidir.

Beləliklə, qeyd edmək lazımdır ki, muxtar respublikanın aqrar sektorunda mövcud olan bu və ya digər problemlərin həll olunması məqsədyönlü həyata keçirilərsə, yeni yaradılan elm müəssisələrində kadr siyasəti düzgün və obyektiv aparılarsa, elmi əsaslarla genişlənən aqrar sektor ən qısa zamanda özünü tam təmin edən və ərzaq təhlükəsizliyinə real töhfələr verən bir sahəyə çevrilə bilər.

*Varis QULİYEV,*
*Naxçıvan Bioresurslar İnstitutunun dosenti*



## Şərur və Babəkdə vergi xidmət mərkəzləri tikilir

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən verilən məlumata görə, Şərur və Babək şəhərlərində vergi ödəyicilərinə xidmət mərkəzlərinin tikintisinə başlanılıb.***

Bu mərkəzlərdə bölgədə fəaliyyət göstərən vergi ödəyicilərinə vergi sahəsində bütün xidmətlər təqdim ediləcək və onların vergi məsələlərinin həllinə dəstək göstəriləcək.

Bu ilin may ayında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ərəfəsində Naxçıvan şəhərində ilk belə xidmət mərkəzi sahibkarların və vətəndaşların istifadəsinə verilib.

## Su anbarları doldurulub

***Muxtar Respublikanın Meliorasiya və Su Təsərrüfatı ASC-nin mətbuat xidmətindən bildirilib ki, bölgənin mövcud su anbarlarında 2023-cü ilin sentyabr ayının sonuna 70,47 milyon kubmetr su ehtiyatı toplanıb.***

Qeyd olunub ki, su istifadəçilərinə sentyabr ayı ərzində 8,32 milyon kub-



metr su verilib, bunun müqabilində 6 min 779 hektar torpaq sahəsi suvarılıb. Hesabat dövründə, həmçinin 14,06 kilometr beton və torpaq kanallar, 17,12 kilometr ara arxlar, 2,9 kilometr kollektor lildən təmizlənib, 1,96 kilometr içməli su, 0,19 kilometr kanalizasiya xətləri çəkilib, 5,95 kilometr mövcud içməli su xətlərində, 0,03 kilometr kanalizasiya xətlərində, 2,16 kilometr suvarma boru xətlərində isə təmir-bərpa işləri aparılıb.

## Kəngərli rayonunda yeni ATS quraşdırılıb



***Bölgədə rabitə və yeni texnologiyalar sahəsində yeni infrastrukturun qurulması, müasir texnologiyaların tətbiqi istiqamətində tədbirlər davam etdirilir. Muxtar respublikanın Rabitə və Yeni Texnologiyalar Nazirliyinin məlumatına görə, bu istiqamətdə icra olunan layihələrin davamı olaraq Kəngərli rayonunun Qıvraq qəsəbəsində sakinlərə müasir multimedia xidmətlərinin göstərilməsi üçün yeni "NGN" tipli Avtomat Telefon Stansiyası (ATS) quraşdırılıb.***

Bu layihə mövcud resurslar və ehtiyatlar hesabına adıçəkilən nazirliyin və tabeli qurumların mütəxəssisləri tərəfindən həyata keçirilib. Belə ki, Nazirliyin mühəndisləri tərəfindən mövcud "Karel" tipli stansiya üzərindəki nömrələr yeni quraşdırılan 848 nömrətutumlu ATS-yə köçürülüb.

Qeyd edək ki, yeni quraşdırılan ATS vasitəsi ilə istifadəçilər telefon rabitəsi ilə yanaşı, yüksək sürətli internet, video görüntülü rabitə və çoxlu sayda servis xidmətləri ilə təmin olunurlar.

***XQ***

# "Ağıllı pambıq" sortları birə-beş məhsul verir

**Kənd Təsərrüfatı Nazirliyi (KTN) ilə Atom Enerjisi üzrə Beynəlxalq Agentliyi (AEBA) tərəfindən pambıq, buğda və çəltik istehsalında "ağıllı kənd təsərrüfatı" üzrə beynəlxalq təcrübələrin genişləndirilməsi mövzusunda birgə seminar keçirilib.**

KTN-nin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən aldığımız məlumata görə seminarda adları çəkilən qurumlar arasında sıx əməkdaşlığın mövcud olduğu və bunun aqrar sektorun müxtəlif sahələrini əhatə etdiyi bildirilib.

Qeyd olunub ki, 2018-2019-cu illərdə nüvə texnologiyalarının tətbiqi ilə pambığın məhsuldarlığının artırılması məqsədilə xəstəliklərə, quraqlığa və şoranlığa davamlı mutant xətlər yaradılıb və həmin xətlər hazırda yeni pambıq sortlarının yaradılması üzrə seleksiya proqramlarına daxil edilib. 2022-2025-ci illəri əhatə edən hazırkı layihənin məqsədi isə qlobal istiləşmə şəraitində respublikamızda pambıq istehsalının genişləndirilməsi üçün iqlim əsaslı "ağıllı kənd təsərrüfatı" təcrübələrinin inkişaf etdirilməsi və yayılmasıdır.

İstər birinci, istərsə də ikinci layihə Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun təcrübə sahələrində və "P-Aqro" Məhdud Məsuliyyətli Cəmiyyətinin fermer təsərrüfatlarında həyata keçirilib. Xəstəliklərə, quraqlığa və şoranlığa davamlı mutant pambıq xətlərinin yaradılması ilə bağlı layihənin icrası uğurla yekunlaşıb. Layihə çərçivəsində kadr hazırlığı məsələsinə də diqqət yetirilib, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun 6 mütəxəssisi Türkiyə Cümhuriyyətinin Ankara şəhərində yerləşən Türkiyə Atom Enerjisi Qurumunun Sarayköy Nüvə Araşdırma və Təhsil Mərkəzində, Aydın Böyükşəhər Bələdiyyəsinin Nazilli yaşayış məntəqəsinin ərazisində yerləşən Pambıq Araşdırma İnstitutunda təlim keçib.

Azərbaycanda pambıq istehsalı üzrə torpaq, qida maddələri və su ilə bağlı "ağıllı kənd təsərrüfatı" təcrübəsinin genişləndirilməsi layihəsi üzrə Pakistandan gətirilən 7 pambıq sortunun toxumlarından istifadə ediləcək hər hektarın məhsuldarlığı 3 tondan 8 tona çatdırılıb. Sortlar arasında "Cotton Super" sortu ən yüksək məhsuldarlıq göstəriciləri ilə digərlərindən fərqlənib.

Xatırladaq ki, bu təcrübənin həm də buğda bitkisi üzrə tətbiqi istiqamətində tədqiqat aparılıb və ilkin olaraq müsbət nəticə əldə edilib. İqlimə uyğun buğda istehsalı Atom Enerjisi üzrə Beynəlxalq Agentliyi tərəfindən hazırlanan "ağıllı kənd" təsərrüfatı təcrübələri əsasında bu il respublikanın 3 rayonunun (Şəki, Beyləqan və Bərdə) fermer təsərrüfatlarında 3 variantda ("ağıllı kənd təsərrüfatı", ən yaxşı regional və fermer təcrübəsi) nümayiş əkinləri aparılıb və ən yüksək məhsuldarlıq Beyləqan (80 sentner/ha) və Bərdə (78 sentner/ha) rayonlarında əldə edilib.

Kənd təsərrüfatında "ağıllı nüvə və izotop" sistemlərinin tətbiqi haqqında məlumat verən Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin eksperti Mohammad



Zaman bu istiqamətdə istifadə olunan texnologiyaların insanların sağlamlığına mənfi təsir etmədiyini, həyata keçirilən sahələr üzrə prosesləri daha dəqiq məlumatlarla təmin etməyə imkan verdiyini, öz növbəsində, dəqiq məlumatlar əsasında tətbiq edilmiş strategiyanın məhsuldarlıqda 60 faiz artıma gətirib çıxardığını bildirib.

Göründüyü kimi, Kənd Təsərrüfatı Nazirliyi ilə Atom Enerjisi üzrə Beynəlxalq Agentliyi tərəfindən həyata keçirilən layihə çərçivəsində, ilk növbədə, "ağıllı kənd təsərrüfatı" təcrübəsi inkişaf etdirilib, nüvə texnologiyalarından yararlanmaqla alınan Pakistan sortları olan toxumlar əkilib. Sonrakı mərhələdə isə Azərbaycan alimlərinin potensialının gücləndirilməsi üçün təlimlər, fermer təsərrüfatlarında "ağıllı kənd təsərrüfatı" təcrübələri keçirilməklə nümayiş əkinləri aparılıb.

Nəticədə, uğurlu göstəricilər əldə edilib. Başqa sözlə, layihə əsasında pambığın məhsuldarlığının və lif keyfiyyətinin artırılmasına nail olunub. Pakistanın pambıq sortlarının məhsuldarlıq potensialı bir hektardan 12 tona çatdırılıb. Azərbaycanda torpağın hums qatı yüksək olduğu üçün "ağıllı kənd təsərrüfatı" təcrübəsindən istifadə etməklə yeni uğura imza atılıb. Pakistandan gətirilən "Cotton super" sortunun məhsuldarlığı respublikamızın torpaq iqlim şəraitində ilkin mərhələdə hektardan 80 sentnerədək çatdırılıb.

"Ağıllı kənd təsərrüfatı" təcrübəsindən istifadə edən fermer Səxavət Məmmədov bildirir ki, artıq iki ildir bu layihə əsasında pambıq becərir. Nəticələr də yüksəkdir, təkcə ötən il təsərrüfatında 7 sort pambıq toxumunu "ağıllı kənd təsərrüfatı" təcrübəsi ilə yetişdirən S.Məmmədov "Cotton super" sortu sayəsində hər hektara 90 sentnerə yaxın məhsul əldə edib. Cari ildə də 3 hektar sahədə "Cotton super" toxumu becərən fermer deyir ki, bu sort əsasən xəstəliklərə, quraqlığa dözümlü olması ilə seçilir. Eyni zamanda, becərmə işləri zamanı gübrəyə çox da ehtiyac qalmır.

***XQ***

# Qarabağa dönən köçkünlərin 70 faizi işləyir

**İşğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işləri sürətlə davam edir. Ərazilər minalardan təmizlənir, yaşayış üçün vacib olan infrastrukturlar qurulur. Eyni zamanda, kənd təsərrüfatı ilə əlaqədar yeni fəaliyyət sahələri yaradılır.**



İndiyədək region üçün xüsusi əhəmiyyət kəsb edən Tərtər–Çaylı–Suqovuşan–Talış, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yollarının (Zəfər yolu) və Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun tikintisi başa çatdırılıb. 2023-cü il ərzində Qarabağ və Şərqi Zəngəzurda daha 12 yol layihəsinin yekunlaşdırılacağı nəzərdə tutulub.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda ümumi uzunluğu 66 kilometrə yaxın olan 39 avtomobil tunelinin inşası həyata keçirilir. Ümumilikdə isə işğaldan azad edilmiş ərazilərdə 2026-cı ilə qədər 2 min 300 kilometrə yaxın 20 avtomobil yolu layihəsinin icrası nəzərdə tutulur.

Qarabağda bərpa-quruculuq tədbirlərinin başlandığı ilk vaxtlardan torpaqların su ilə təmin olunması da diqqətdə saxlanılıb. Artıq bir çox su anbarları, suvarma və paylayıcı su kanalları istifadəyə verilib. Digər su təsərrüfatı obyektlərinin mərhələli şəkildə təmiri, bərpası və yenilərinin tikintisinin 2026-cı ilin sonunadək yekunlaşdırılması planlaşdırılıb.

Bərpa-quruculuq tədbirlərini həyata keçirən sahibkarlar üçün investisiya qoyuluşu üçün əlverişli şərait– vergi güzəştləri də hazırlanıb.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında görülən işlər mərhələli şəkildə həyata keçirildiyindən məskunlaşma da mərhələli şəkildə gerçəkləşir. Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış kəndlərində, Füzuli və Laçın şəhərlərində keçmiş məcburi köçkünlər yaşayırlar. Laçın rayonunun Zabux kəndində də məskunlaşma başlanıb.

Təbii ki, yalnız köçürülmə ilə iş bitmir. Azad olunan ərazilərdə yaşayan ailələrin təhlükəsizliyi, məşğulluğu da təmin olunmalıdır. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov bu barədə dedi:

– Məşğulluq çox ciddi problemdir, burada fərdi yanaşma tələb edilir. Bu məsələyə hər bir ailə üçün detallı şəkildə baxırıq. Məktəbdə, səhiyyə ocağında və digər qurumlarda işləyəcək insanlar müəyyənləşdirilir. Ailələrin məşğulluq məsələsi həll olunduqdan sonra köç məsələsi təmin edilir.

Buvaxtadək Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə köçən əhalinin 70 faizinin məşğulluğu təmin edilib. Bu proses davam edəcək. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi də işğaldan azad etdiyi ərazilərdən olan vətəndaşların kiçik bizneslərinin qurulması üçün özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təminatını davam etdirir.

İqtisadçı ekspert Pərviz Heydərov isə bildirdi ki, işğaldan azad edilən ərazilərdə vacib məsələlərdən biri məşğulluğun təmin olunmasıdır:

– Hökumətin siyasətinin əsas xətlərindən biri "Böyük Qayıdış" proqramının həyata keçirilməsidir. 30 illik işğaldan sonra ordumuz, xalqımız Ali Baş Komandanın ətrafında birləşərək torpaqları azad etdi. Köç üçün əlverişli şərait yandı. Sakinlərin işlə təmin olunması üçün Qarabağda yeni layihələrin icrası üçün həm əlverişli coğrafi mühit, həm də sürətli yenidənqurma–bərpa işləri nəticəsində yaradılan infrastruktur mövcuddur. Qarşımızda duran missiya həmin əraziləri Azərbaycanın ən gözəl, inkişaf edən, çiçəklənən guşəsinə çevirməkdir.

Beləliklə, yaxın gələcəkdə işğaldan azad edilmiş ərazilər Azərbaycanın ən inkişaf etmiş regionuna çevriləcək. Əhaliyə təklif olunan işlərin sferası daha geniş sahələri əhatə edəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Udmurtiya ilə “Dostluq” körpüsü

**Udmurtiyanın paytaxtı İjevsk şəhərində “Dostluq” Azərbaycan İctimai Mərkəzinin 25 illik yubileyi qeyd olunub.**



Yubiley tədbirlərində iştirak etmək üçün Azərbaycandan da qonaqlar dəvət edilib. Onlar Udmurtiya Respublikasının Milli siyasət naziri Eduard Petrovla görüşüblər. Nazir rəhbərlik etdiyi dövlət qurumunun fəaliyyəti barədə məlumat verib, xalqlarımız arasında tarixi dostluq münasibətlərindən danışıb. O, İjevskdə soydaşımız Zülfüqar Mirzəyevin başçılıq etdiyi “Dostluq” İctimai Mərkəzinin səmərəli işini qeyd edib.

Bildirilib ki, Azərbaycan diasporu Udmurtiyadakı milli-mədəni birliklər arasında fəallığı ilə seçilir. Milli bayramlar, xatirə günləri, SSRİ Xalq artisti Müslüm Maqomayevə həsr olunan “Sən mənim melodiyamsan” açıq festival-müsabiqəsi, dama və nərd üzrə turnirlər, “Nə, harada, nə vaxt?” açıq çempionatı təşkilatın keçirdiyi mühüm tədbirlərdir. Milli ənənələri yaşatmaq, Azərbaycan dilini tədris etmək məqsədilə İjevskdə Bazar günü məktəbi də fəaliyyət göstərir.



Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi şöbə müdirinin müavini Əli Baytalov və Azərbaycandakı Rus İcmasının sədr müavini, politoloq Anastasiya Lavrina səmimi qəbula görə nazirə təşəkkür edərək, qarşılıqlı əlaqələrin daha da genişləndiriləcəyinə ümidvar olduqlarını bildiriblər. Təklif edilib ki, respublikalarımızın jurnalist təşkilatları arasında da əməkdaşlığı genişləndirilsin. Rus Mədəniyyəti Cəmiyyətinin sədri Vitali Tyulpin isə “Dostluq” təşkilatı ilə birgə layihələrin millətlərarası münasibətlərin möhkəmləndirilməsində mühüm rolu olduğunu qeyd edib.

Səfər zamanı Azərbaycan nümayəndələri Rusiya Xarici İşlər Nazirliyi Nümayəndəliyi İjevsk bölməsinin rəhbəri Gülnarə Mannanova, Udmurtiya Sosial Siyasət və Əmək Nazirliyinin rəsmisi Tatyana Rupasova ilə də görüşüblər.

Daha sonra Dostluq Evində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan dəyirmi masa keçirilib. “Dostluq” mərkəzinin təşkil etdiyi tədbirdə Azərbaycandan gəlmiş qonaqlarla bərabər, Rusiya Federasiyası Dövlət Dumasının deputatı Oleq Qarin, “Batkovşina” Belarus Mədəniyyəti Cəmiyyəti”nin sədri Nikolay Ukrainets, eləcə də Moskva şəhəri, Tatarıstan Respublikası və Orenburq vilayəti üzrə Azərbaycan icmalarının nümayəndələri iştirak ediblər.

Öncə müasir Azərbaycanın inkişafına Ulu öndərin misilsiz töhfələrindən bəhs edən sənədli film göstərilib. Sonra azərbaycanlı qonaqlar dövlət müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycan–Rusiya münasibətlərinin inkişafında Ulu öndərin xidmətlərini qeyd ediblər.

Ertəsi gün “Dostluq” mərkəzinin 25 illik yubileyi münasibətilə mərasim başlanıb. Tədbiri qurumun sədri Zülfüqar Mirzəyev açaraq bildirib ki, Azərbaycan diasporunun nümayəndələri bu respublikanın inkişafına mühüm töhfələr verirlər. Son illərdə millətlərarası münasibətlərin möhkəmlənməsinə həsr edilən 150-dən çox yaddaqalan tədbir keçirilib. Bununla bağlı sənədli film nümayiş olunub.

Udmurtiya dövlət və bələdiyyə orqanlarının nümayəndələri, milli-mədəni birliklərin rəhbərləri, habelə Moskva, Kirov, Orenburq, Perm vilayətlərinin, Naberejnıye Çelnı şəhərinin diaspor təmsilçiləri təbrik nitqləri ilə çıxış ediblər. Əli Baytalov mərkəzə gələcək fəaliyyətində uğurlar arzulayıb.

Təşkilatın rəhbəri Zülfüqar Mirzəyev “Diaspor fəaliyyətində xidmətə görə” medalı ilə təltif edilib. Mərkəzin fəal üzvləri və diaspor nümayəndələrimizə Udmurtiyada millətlərarası münasibətlərin möhkəmlənməsində mühüm rollarına görə mükafatlar verilib.

Mərasimdə Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti, Avrasiya Xalqları Assambleyası Baş katibinin müavini Rauf Zeyni, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev də mərkəzin rəhbərliyini təbrik ediblər.

Bayram tədbirində Samara şəhərinin “Alpan” ansamblının ifasında Azərbaycan xalq melodiyaları səsləndirilib. Məşhur “Buranovskie babuşki” folklor qrupu, respublikanın digər xalq kollektivləri və incəsənət ustaları da öz çıxışları ilə məclisi şənləndiriblər.

Azərbaycan nümayəndələri İjevsk şəhərindəki Ustinovski polis idarəsində əfsanəvi polis zabiti Tofiq Kərimovun xatirə lövhəsinin önünə əkliller qoyublar. Onlar Xalqlar Dostluğu Evinin çoxşaxəli fəaliyyəti ilə tanış olub, atıcı silah konstruktoru, general Mixail Kalaşnikov adına Muzey-Sərgi Kompleksini ziyarət ediblər.

**Ə.ƏLİYEV**
**XQ**

“Nəsimi” filmi – 50

# Tarixi film və bir filmin tarixi

**Bu il 125 yaşını qeyd edən Azərbaycan kinematoqrafiyasının tarixində seçilən hadisələrdən biri 50 il əvvəl “Nəsimi” filminin ərsəyə gəlməsidir.**

Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi İmadəddin Nəsiminin 600 illik yubileyi UNESCO səviyyəsində qeyd edilib. Həmin il “Nəsimi” filminin çəkilməsi qərara alınıb və bu iş rejissor Həsən Seyidbəyli ilə yazıçı İsa Hüseynova həvalə edilib.



Nəsimişünaslar, dilçilər, filoloqlar, rejissor və ssenaristlərin ssenari müzakirəsində İsa Hüseynovun “Məhşər” romanının süjetinin film üçün əsas götürülməsi məqsədəuyğun sayılıb. Filmin çəkilişləri boyunca da görkəmli filoloq və tarixçilər məsləhətlərini veriblər: onlar çəkilişlərdə iştirak ediblər ki, Nəsimi dövrü, dili, fəlsəfi baxışı ilə bağlı yanlışlığa yol verilməsin, şairin qəzəlləri düzgün ifa olunsun. Ən böyük əziyyət isə təbii ki, rejissorla ssenari müəllifinin çiyinlərinə düşüb.

Daim çəkiliş meydanında olan İsa Hüseynov sonradan ssenariyə çoxlu əlavələr edib. Yaradıcı heyətə ona aid olmayan köməklikləri də göstərib. Məsələn, Teymurləng obrazını oynayan Xalq artisti Yusif Vəliyev yaddaşında problem olduğundan obrazın sözlərini unudurmuş, İsa müəllim isə ona suflyorluq edirmiş. Nəsimi ilə Teymurləngin dialoqu səhnəsində o, Yusif Vəliyevə kömək edərkən kadra düşməsin deyə, at arabasının altında gizlənərək sözləri oradan pıçıldayırmış.

“Nəsimi”yə qədər “Azərbaycanfilm”də lentə alınan filmlərdə dekorasiyadan istifadə olunsa da, bu filmdə heç bir qurama səhnə yoxdur. Çəkilişlər pavilyonda deyil, təbiətin qoynunda, uyğun tarixi məkanlarda çəkilib. Bu coğrafiya isə Qobustandan tutmuş, ta Özbəkistanın Xivə şəhərinə qədər geniş ərazini əhatə edib. Teymurləngin əsgərlərlə yürüşü Mərəzə yolunda – Cəngidə çəkilib. Həmin kütləvi səhnəyə yığılmış 5 minə qədər könüllü tələbə kinostudiyada kostyumlarını geyinib 50–60 avtobusla Cəngiyə gediblər. Nəsiminin edam səhnəsi isə Özbəkistanın Xələbi xatırladan tarixi Xivə şəhərində lentə alınıb. Naxçıvandakı Əlincə qalasında, Suraxanıdakı Atəşgah kompleksində, Ramana qalasında da çəkilişlər aparılıb.

Baş rolun ifaçısı Rasim Balayev deyir ki, İncəsənət İnstitutunu bitirəndən Nəsimi roluna çəkilincəyə qədər çoxsaylı sınaq çəkilişlərində olub, hamısı uğursuzluqla nəticələnib. Gənc aktyor mənəvi çətinliklərin mənganəsində ağır depressiya ilə xəstəxanaya yerləşdirilib:– Xəstəxanada yatırdım, filmin 2-ci rejissoru mənə bir ssenari verdi ki, Həsən Seyidbəyli deyir, bunu oxusun. Dedim ki, mən bu yaxınlarda öləcəm, başqa adam tapın. Həmin gün həkimlər yığışıb məni bir daha müayinədən keçirdilər, sonra konsilium etdilər və sanatoriyaya göndərildim. Həsən müəllim dedi ki, get, dincəl, amma hər günorta gəl məşqlərə. Beləcə, 2 ay məşq etdik, sonra çəkilişlər başlandı. Məni Həsən Seyidbəyli Nəsimi obrazı ilə həyata, həm də sənətə qaytardı.

Həmin səhnədə günün altında üzündə əzab ifadəsi inandırıcı olsun deyə, aktyora içməyə su da verməyiblər. Kadrlar çəkilib bitən kimi ətrafda çəkilişi izləyən sadə adamlar hamısı əllərində hazır tutduqları su dolu stəkanla Rasim Balayevi dövrəyə alıblar. Aktyor deyir ki, ən çətin anlarımda o sevgi məni yaşadıb.

Hürufiliyin banisi Fəzlullah Nəiminin qızı Fatimə obrazının ifaçısı aktrisa Xalidə Quliyeva o zaman tələbə olub. Onu Həsən Seyidbəyli Tofiq Tağızadənin “Qızıl qaz” filmindən bəyənibmiş. Xalidə xanım ssenarini oxuyub, rejissora “Fatiməni oynayaram”, – deyib. “Elə mən də onu istəyirəm” – deyə, rejissor cavab verib.

Filmdə Dərviş rolunu oynayan Əbdül Mahmudbəyov isə danışır ki, Dərvişi boğma səhnəsində özünü rəsmən boğulmuş hesab edib: “Necə yapışdısa boğazımdan, Nəimi məni xilas edəndə elə bildim daha ağzımı açıb danışa bilməyəcəm, ona görə də səhnə təbii alınmışdı”.

“Nəsimi” filmi 1974-cü ildə Bakıda keçirilən VII Ümumittifaq kinofestivalında tarixi mövzuda çəkilmiş ən yaxşı filmə görə mükafat alıb. Ən yaxşı kişi rolunun ifasına görə aktyor Rasim Balayev II mükafatı qazanıb. Zaman göstərdi ki, Yusif Vəliyevin Teymurləngi, İsmayıl Osmanlının Fəzlullah Nəimisi, Məmmədrza Şeyxzamanovun Şeyxi, Səməndər Rzayevin Şirvanşah I İbrahimi, Kamal Xudaverdiyevin Yusifi, Tofiq Mirzəyevin Dövlət bəyi, Muxtar Maniyevin Miranşahı, Əbdül Mahmudovun dərvişi də kişi rolu kimi ölməz obrazlardır.

Bu il “Nəsimi” filminin 50 illik yubileyidir. Amma hər dəfə ekranlarda göstəriləndə təzə çəkilibmiş kimi, maraq və məhəbbətlə izləyirik, kinomuzun “Nəsimi”sinin yaradıcılarına əhsən deyirik.

**R.QURBANLI**
**XQ**

# Məşhur “Amerika azərbaycanlısı” – Cefri Verbok

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə “Azərbaycan–Amerika mədəniyyət körpüsü: Cefri Verbok” adlı tədbir keçirilib.**



Məclis Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında təşkil edilib.

Əvvəlcə Cefri Verbokun Heydər Əliyevlə görüşü barədə videoçarx nümayiş olunub, həmin görüşdə qeyd olunan məsələlərin bu gün həqiqətə çevrildiyi, ərazi bütövlüyümüzün təmin olunduğu və Azərbaycanın dostlarının da bizimlə bərabər qələbə sevinci yaşadığı diqqətə çatdırılıb. Cefri Verbokun Azərbaycanla əlaqələrinin tarixi, uzun illər davam edən sarsılmaz dostluq münasibətləri və ölkəmizi, xüsusilə mədəniyyətimizi, musiqimizi dünyada uğurla təbliğ etməsi barədə danışılıb, amerikalı musiqiçiyə həsr olunmuş “Gənc səslər, qədim nəğmə” etnoqrafik sənədli filmindən fraqmentlər nümayiş etdirilib.

Qivami Rəhimli moderatorluq etdiyi tədbirin bədii hissəsində Cefri Verbokun, Anar İmanovun və Əsgər Əsgərzadənin ifasında konsert proqramı təqdim edilib.

# “Çağdaş Türkman ədəbiyyatı” Azərbaycanda



**AMEA Ədəbiyyat İnstitutunda “Çağdaş Türkman ədəbiyyatı” mövzusunda elmi seminar keçirilib. Təbirdə tədqiqatçı alim, yazıçı Şəmsəddin Kuzəçi məruzə edib.**

Qazaxıstandan gəlmiş alimlərin də qatıldığı seminarı giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq Türkman və Azərbaycan ədəbiyyatının əlaqələrindən danışıb. Xoryat janrında yazılan əsərlərin kərkük ədəbiyyatında xüsusui rolunu vurğulayıb. “Şəmsəddin Kuzəçi Kərkük mövzusunda 73 kitab yazıb. İraq–Azərbaycan, Kərkük–Azərbaycan əlaqələrinin inkişafında onun böyük xidmətləri var. Alim Türkiyə ilə qarşılıqlı ədəbi-mədəni əlaqələrin möhkəmləndirilməsinə də sanballı töhfələr verib”.

Akademik İsa Həbibbəyli türkman alimlərinin elmi məqalələrindən ibarət kitabın çap olunması zərurətini vurğulayıb. Ardınca Şəmsəddin Kuzəçiyə “Azərbaycan–İraq-Türkman ədəbiyyatının tədqiqi və təbliği sahəsindəki görkəmli xidmətlərinə, Azərbaycan elmi-ədəbi dairələri ilə səmərəli əlaqələrinə görə” Ədəbiyyat İnstitutunun fəxri doktoru diplomu təqdim edilib.

Sonra Şəmsəddin Kuzəçi çıxış edib. O, tədbirin təşkilinə görə təşəkkürünü çatdırıb. İraq türkmanlarının məskunlaşma tarixinə nəzər salan məruzəçi çağdaş türkman ədəbiyyatının ümumi mənzərəsini diqqətə çatdırıb, apardığı tədqiqat işləri barədə ətraflı məlumat verib və hazırda türkman şairlərinin 2 cildlik antologiyasını hazırladığını qeyd edib.

Filologiya elmləri doktoru, professor, Əməkdar Elm Xadimi Qəzənfər Paşayev görülən işləri təqdir edərək, 12 iyul 2023-cü il tarixində Azərbaycanda İraq-Türkman Araşdırmaları Şurasının yaradıldığını xatırladıb və şuranın tədbirlər planının artıq hazır olduğunu bildirib.

İraq–Türkman Araşdırmaları Şurasının sədri, akademik Teymur Kərimli bu sahədə görülmüş işlərdən bəhs edib, qarşıda duran məsələlərdən söz açıb.

Seminarda qazaxıstanlı alim Ağmaral İsmaqulova, filologiya elmləri doktoru, professor İmamverdi Həmidov, tarix elmləri doktoru Güllü Yoloğlu çıxış edərək bu kimi tədbirin gələcək işlərə böyük təkan verəcəyinə inandıqlarını bildiriblər.

**Q.RAMİLƏ**
**XQ**

# Ağsuda “yeraltı muzey”ə səyahət




**AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu Albanşünaslıq Elmi Mərkəzinin Nərgizava arxeoloji ekspedisiyası Ağsu rayonunun Gəgəli kəndi ərazisində aşkarlanan nekropolda tədqiqat işlərini başa çatdırıb.**

Ərazidəki 64 kvadratmetr sahədə qazıntı aparılıb. Uzun dövrlər ərzində şum işlərinin görülməsi, təsərrüfat quyularının qazılması nəticəsində qarışmış təbəqədən Ellin dövrünə aid nərgizava tipli qabların – küpə, parç və dolçaların parçaları seçilərək götürülüb. Orada 2 sadə torpaq qəbir də üzə çıxıb. Ümumilikdə bu ilin sentyabr ayında Nərgizava nekropolunda 15 sadə torpaq qəbir öyrənilib.

Aşkarlanan qəbirlərin yarısı azyaşlı uşaqlara məxsusdur. Onların bəziləri iri küp parçaları ilə örtülüb, yanlarına istiqamət göstərən daşlar qoyulub. Uşaq skeletlərinin üzərindən tunc, dəmir, əqiq, pasta, şüşə bəzək əşyaları, üzüklər, qolbaq, sancaq və muncuqlar aşkar edilib. Böyüklərin skeletləri arasında kişilərə aid olanlar üstünlük təşkil edir. Onların baş və ya ayaq tərəfində dəmir nizə və bıçaqlar olub. Maraqlıdır ki, bəzən kişi və qadınlar eyni quyuda dəfn edilib. Ona görə də Nərgizava nekropolu pilləli qəbirlər adlandırılır.

İlk dəfədir ki, Nərgizava abidəsində qəbir avadanlığı içərisində oturacağında “tələf deşiyi” olan saxsı qablara rast gəlinir. Bununla yanaşı, bu abidədə daş heykəlin başının qoparılaraq başıüstə qoyulması və saxsı qabların sınıqlarının qəbir avadanlığına daxil edilməsi dini ayinlərlə bağlı yeni tapıntıdır. İlkin araşdırmalar göstərir ki, belə rituallar Qafqazla yanaşı, Ellin dövründə Ptolomeylər Misirinə xasdır və daha əvvəlki dövrlərin dini ayinlərini əks etdirir.

Qazıntı dövründə orta əsr Ağsu şəhəri Dövlət Tarix-Mədəniyyət Qoruğunun əməkdaşları və Həqiqət Musayev adına Gəgəli kənd ümumi orta məktəbinin şagirdləri üçün təlim və ustad dərsi keçirilib.

**XQ**

Beynəlxalq həyat

# Yaxın Şərq: Odun üstünə yağ tökənlər...

## Makronun saxta sülh vasitəçiliyi buna sübutdur

(əvvəli 1-ci səhifədə)

Hər gün, hər saat qlobal mediada hadisə yerindən günahsız insanların anbaan pisləşən acınacaqlı durumunu nümayiş etdirilən video süjetləri görmək, müşahidə etmək, həqiqətən, çox ağırdır. Dəhşətli səhnədir, deyilmi?

Bu fəlakətlərin qarşısını almaq olarmı? Əlbəttə, olar! Amma bunu istəməyən qüvvələr var. Onlardan biri, bəlkə də birincisi Fransa dövləti və "Xoruzlar ölkəsi"nin rəhbəri Emmanuel Makrondur.

İki gün əvvəl dünyanın "ən sivil və demokratik ölkələrindən biri" olduğunu iddia edən Fransanın dövlət başçısı İsrailə səfər edib. Yerusəlimdə İsrail Prezidenti və baş naziri ilə görüşən fransalı siyasətçi regionu bürüyən alovu söndürmək əvəzinə, əksinə, odun üstünə yağ tökməyə hazır olduğunu nümayiş etdirən bəyanatlar səsləndirib.

Belə ki, danışıqlar zamanı Makron vaxtilə "İslam dövləti" terror təşkilatı əleyhinə yaradılmış beynəlxalq koalisiya çərçivəsində HƏMAS-a qarşı mübarizəyə başlamağı təklif edib. Bu, o deməkdir ki, "terrorçuları tapıb cəzalandırmaq niyyətilə" Qəzzanın ağır bombardmanı davam etdiriləcək və bundan sonra da qan su yerinə axacaq.

Bakı Dövlət Universitetinin Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası kafedrasının müdiri, professor Aydın İbrahimov hesab edir ki, ABŞ, Fransa, ümumilikdə Qərbin yanaşması faktiki olaraq bölgədə sülhü bərpa etmək, hər iki tərəfdən minlərlə insanın ölümünə səbəb olan qanlı müharibəni daha da alovlandırmağa yönəlib.

Digər siyasi təhlilçi, professor Mübariz Məmmədli də əmindir ki, Makronun və bütövlükdə Qərbin tərəfləri atəşi dayandırmağa çağırmaq əvəzinə müharibənin davam etdirilməsinə dəstək verməsi, onun hətta beynəlxalq koalisiya şəklində müharibənin miqyasının daha da genişləndirməyi təklif etməsi, bir daha



göstərir ki, Qərb sülhdə maraqlı deyil.

Professor M.Məmmədlinin fikrincə, bu, Fransanın xarici siyasətinin nə qədər aqressiv və ağılsız olduğunu yenidən sübut edir - ərazisində milyonlarla müsəlmanın yaşadığı Fransa İsrail və Fələstinə sülh üçün vasitəçilik əvəzinə, müharibə təklif edir. Yeri gəlmişkən, eyni siyasəti Fransa Cənubi Qafqazda da həyata keçirməyə cəhd göstərir.

Dünən çağdaş dünyanın ən xarizmatik siyasətçilərindən olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq mətnlə deyibdir: "Yaxın Şərqdə müharibənin genişlənməsini istəyənlər var". Qardaş ölkənin dövlət başçısı bu sözləri oktyabrın 25-də hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) parlament fraksiyasının toplantısında çıxışı zamanı səsləndirib. O həmçinin bildirib ki, Ankara birmənalı surətdə buna qarşıdır.

R.T.Ərdoğan, eyni zamanda, İsrail və Fələstini ən yaxın günlərdə danışıqlara çağırıb. Dövlət başçısı, həmçinin Qərbin mövqeyini kəskin tənqid edib. "BMT, xüsusilə BMT Təhlükəsizlik Şurasında islahatlara ehtiyac var". O bildirib ki, dünyanın təhlükəsizliyi 5 dövlətin maraqlarından asılı olmamalıdır. R.T.Ərdoğan dünyadakı hazırkı vəziyyətə görə təəssüfləndiyini dilə gətirib.

Bir çox nüfuzlu siyasi təhlilçilər hazırda həyəcan təbili çalaraq qeyd edirlər ki, Yaxın Şərqdəki böhran təcili surətdə söndürülməsə, silahlı qarşıdurma regional müharibəyə çevrilə bilər. Belə ki, dünya getdikcə daha da qarışır. Qarşıdan gələn rəqabət erası əvvəlki dövrlərdən fərqli olacaq. Ümumi problemlər getdikcə daha da kəskinləşəcək.

Qeyd edək ki, Türkiyənin xarici işlər naziri Hakan Fidan, eləcə də onun rusiyalı həmkarı-Sergey Lavrov oxşar məzmunlu açıqlamalar verərək bildiriblər ki, Yaxın Şərqdəki durumla bağlı risk getdikcə artır. Daha pis ssenarini görmək mümkündür. H.Fidan çıxışı zamanı, həmçinin Qərb ölkələrinin mövqeyini tənqid edib.

Yeri gəlmişkən, BMT-nin Baş katibi Antonio Quterreşin HƏMAS-la bağlı çıxışından sonra İsrail hökuməti bu təşkilatın məmurlarına ölkəyə giriş üçün viza verməkdən imtina edib. "The Time of İsrael" nəşrinin məlumatına görə, İsrail rəsmiləri Baş katib A.Quterreşin BMT Təhlükəsizlik Şurasının toplantısındakı çıxışını tənqid edərək onun istefasını tələb ediblər.

Qeyd edək ki, Antonio Quterreş Təhlükəsizlik Şurasında çıxışında bildirib: "HƏMAS hücumlarının vakuumda, boş-boşuna baş vermədiyini də etiraf etmək lazımdır". Göründüyü kimi, bu bəyanat İsraildə dərin narazılıq doğurub.

İsrailin BMT-dəki nümayəndəsi Gilad Erdan bildirib ki, Təl-Əviv BMT Baş katibinin humanitar məsələlər üzrə müavini Martin Qriffitsə bu ölkəyə giriş vizası verməkdən imtina edib.

Görünən budur ki, indi planetimizn siyasi və hərbi nəbzi olduqca gərgin bir vəziyyətə çatıb. Bəşəriyyət qarşısıalınmaz böyük bir uçurumla üzləşə bilər. Sağlam düşüncə və bəşəri dəyərlər hər şeyin fövqündə olmalıdır. Çıxış yolu yalnız budur!

***Məsaim ABDULLAYEV***
***XQ***

# Bölgə mediası kömək gözləyir

**Azərbaycan Mətbuat Şurasında İdarə Heyətinin üzvləri ilə Medianın İnkişafı Agentliyi rəhbərliyinin görüşündə milli jurnalistikamızın inkişaf tələbindən yaranan məsələlər sırasında bölgə mətbuatının çətin durumu diqqət mərkəzində oldu.**



Müzakirəni giriş sözü ilə açan AMŞ-nin sədri Rəşad Məcid iki qurum arasında davamlı təmasların media məkanındakı önəmli proseslərlə bağlı ortaq mövqenin, həllini gözləyən məsələlərə çevik münasibətin formalaşmasında önəmini vurğuladı.

Görüşdə ölkənin region mediasının köməksiz vəziyyəti və çıxış yolları ətraflı müzakirə olundu. Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirdi ki, rəhbərlik etdiyi qurum Quba və Lənkəranda bölgə mətbuatının nümayəndələri ilə görüşlər keçirib. Məqsəd şəhər və rayonlardakı media mühitinin diaqnostik qiymətləndirməsini aparmaq, mövcud problemin həllinə yardımçı olmaqdır.

Sonra AMŞ İdarə Heyətinin üzvlərinin təklifləri dinlənildi və suallar cavablandırıldı.

Qeyd edildi ki, 1 il əvvəl iki qurum arasında imzalanmış əməkdaşlıq memorandumunun şərtlərinə uyğun olaraq müzakirə edilən məsələ ilə bağlı səmərəli addımlar atılması üçün davamlı birgə səylər göstəriləcək.

**T.RÜSTƏMLİ**
**XQ**

Avroliqa həyəcanları

# Qrup lideri kim olacaq?



**"Bayer" Leverkuzen – "Qarabağ" Ağdam. UEFA Avropa Liqasının "H" qrupunda liderlik uğrunda mübarizədə çox mühüm oyun. Bundesliqa təmsilçisi də, Azərbaycan çempionu da ilk iki turda yüzfaizli nəticə göstərib (6 xal), üçüncü raundda öz aralarındakı görüşə qrupun şərikli liderləri kimi gəlmişlər. Bu axşam şahidlik edəcəyimiz matçın qalibi xal ehtiyatını 9-a çatdırıb, əslində, hələ birinci dövrədən sonra pley-off mərhələsinə vəsiqəni, demək olar, özünə təmin edəcək. Bakı vaxtı ilə saat 23-ə təyin edilmiş oyun hakimin start işarəsindən final fitinədək azarkeşlərə prinsipial mübarizə vəd edir.**

Qrupun digər görüşü isə Norveçdə keçiriləcək: "Molde"–"Hekken" (İsveç). Bu klubların işləri hələlik yaxşı getmir, onlar əvvəlki iki turda meydanı məyus halda tərk edib, xallarının hesabını aça bilməyiblər. Amma hələ vəziyyətləri ümidsiz deyil. Qalib komanda yolun yarısını üçüncü yerdə başa vurub, ikinci dövrə sınaqlarını nisbətən yaxşı əhvalla gözləyəcək.

Leverkuzendə liderlərin duelinə qayıdaraq belə bir məqamı xatırladaq ki, "Qarabağ" evdə "Molde", səfərdə isə "Hekken" ilə görüşlərin taleyini ikinci hissədə müvafiq surətdə Leandro Andrade və Juninyonun vurduqları qollarla öz xeyrinə həll etmişdir. Görəsən, bu dəfə hadisələr necə cərəyan edəcək…

Bir də ki, Almaniyada bugünkü oyun bu klublar arasında noyabrın 9-da Azərbaycanda, Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək ikinci dövrə görüşü qarşısında bir növ kəşfiyyat xarakteri daşıyacaq, tərəflər bir-birini daha yaxşı tanımaq imkanı qazanacaqlar. Bundan kimin daha çox fayda götürəcəyini isə iki həftədən sonra biləcəyik.

Azərbaycan Respublikası üçün tarixi Zəfər və Dövlət Bayrağı günlərində Beynəlxalq Futbol Federasiyasının (FİFA) respublikamızda ilk səlahiyyətli nümayəndəsi olmuş unudulmaz hakimimizin adını daşıyan stadionda idman həvəskarlarımızı möhtəşəm tamaşa gözləyir.

Hələlik isə UEFA-nın bugünkü oyunun hakimliyini Rumıniya Futbol Federasiyasının nümayəndələrinə həvalə etdiyini də nəzərə çatdıraq. Baş hakim rolunda Horatsiu Fesniki görəcəyik.

Komandamıza uğurlar!

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Cüdoçunun kəmər dərəcəsi yoxdursa...

**Azərbaycan Cüdo Federasiyası (ACF) tərəfindən ilk dəfə kəmər dərəcələri üzrə rəsmi imtahan təşkil edildi. Bakı İdman Sarayında keçirilən imtahanda 7 yaşdan yuxarı uşaqlar iştirak edirdilər. Uşaqların cüdo texnikasına yiyələnməsi, eləcə də fiziki hazırlıq səviyyəsini müəyyən edən imtahan, həm də onların motivasiyasında mühüm rol oynayır.**



**ACF-in idman direktoru Kamran Talıbov bildirdi ki, Azərbaycan cüdo tarixində ilk dəfə kəmər dərəcələri üzrə rəsmi imtahan keçirildi. İmtahanlar 6 kəmər dərəcəsi üzrə keçirilir. Ümumilikdə ilk imtahanda 140 idmançı 5 kəmər dərəcəsi üzrə biliklərini nümayiş etdirdi:**

– Qiymətləndirmələr təcrübəli münsiflər heyəti tərəfindən aparıldı. İmtahanın şəffaf şəkildə keçirilməsi üçün ciddi səy göstərildi. İmtahandan uğurla keçən cüdoçular federasiyanın məlumat bazasında qeydə alınır. Gələcək yarışlarda bu məlumatlardan istifadə ediləcək. 7 yaşdan yuxarı hər bir kəs kəmər imtahanında iştirak edə bilər. Müvafiq kəmər dərəcələri üçün imtahanda uyğun yaş qrupundan olan idmançılar iştirak edə bilərlər. Yaşı 15-dən yuxarı olan hər bir kəs isə bütün kəmər dərəcələri üçün müraciət edə bilər. Hazırda kəmər imtahanlarının iki mərhələsini tətbiq edirik. Bu, özümüz üçün də bir test mərhələsidir. Qeyd edim ki, 2025-ci ildən etibarən yalnız kəmər dərəcələri olan idmançılar rəsmi daxili yarışlarda iştirak etmək hüququ qazanacaqlar.

**Türkiyə Cüdo Federasiyasının təhsil üzrə direktoru və Avropa Cüdo Birliyinin kata komissiyasının üzvü Mehmet Yılmaz qeyd etdi ki, imtahan yüksək səviyyədə təşkil edilib. Türkiyəli mütəxəssis Beynəlxalq Cüdo Federasiyasında və Avropa Cüdo Birliyində "kata" imtahanları və kəmər imtahanlarının bu formada keçirildiyini dedi. O, cüdoya yeni başlayan idmançıların gələcəkdə təhsil sahəsində inkişafı üçün Avropa Cüdo Birliyinin ən son tətbiq etdiyi qaydalara uyğun imtahan verməsinin çox önəmli olduğunu vurğuladı:**

–Gələcəkdə Azərbaycan cüdosunda təhsil sahəsində və "kata"da çox mühüm inkişaf olacağına, "kata" sahəsində də Avropa və dünya çempionatlarında idmançılarınızın yaxşı nəticələr qazanacaqlarına inanıram.

Cüdo mütəxəssisi Beynəlxalq Cüdo Federasiyasının (BCF) Akademiyasında təhsil alan məşqçilərin praktiki imtahana hazırlıq məqsədi ilə Bakıda keçirdiyi "kata" təlimindən də danışdı. Bildirdi ki,



məşğələlərdə Azərbaycanın müxtəlif rayon və şəhərlərini təmsil edən müxtəlif klub, cəmiyyət və idman təşkilatlarından 75 məşqçi iştirak edib.

Qeyd edək ki, kəmər imtahanlarının ölkənin müxtəlif regionlarında təşkil edilməsi planlaşdırılır. İmtahanların keçirməsində əsas məqsəd bu idman növünün ölkəmizdə əsaslı və keyfiyyətli inkişafını təmin edərək beynəlxalq standartlara uyğunlaşdırmaqdır.

***L.QURBANOVA***
***XQ***


# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

Bakı şəhəri, Nərimanov rayonu, Vaqif prospekti ilə Ceyhun Hacıbəyli küçələrinin kəsişməsindən Nəsib bəy Yusifbəyli küçəsi istiqamətində istirahət parkında tikinti-quraşdırma işlərinin həyata keçirilməsinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsində yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-dən (əlaqələndirici şəxs: Əhməd Məmmədovdan 496-52-05) ala bilərlər: E-mail ahmed.mmmdov@gmail.com ala bilərlər. İşlərin qısa təsviri: Bakı şəhəri, Nərimanov rayonu, Vaqif prospekti ilə Ceyhun Hacıbəyli küçələrinin kəsişməsindən Nəsib bəy Yusifbəyli küçəsi istiqamətində istirahət parkında tikinti-quraşdırma işlərinin həyata keçirilməsinin satın alınması. Tenderdə iştirak haqqı- 10000,00 (on min manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

İştirakçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd (elan verildikdən sonrakı tarixə);
- satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışının, nizamnaməsinin (hüquqi şəxslər), imza səlahiyyətinin olması (direktor təyin edilməsi barədə əmr, əgər təsisçi direktor deyilsə), vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti və rekvizitləri);
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar; - sahibkarlıq subyektinin bölgüsü;
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;
- mühasibat balansları, mənfəət və zərər haqqında hesabat;
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması, oxşar işləri əhatə edən ən azı 3 mln manat həcmində sifarişi baş podratçı kimi qənaətbəxş şəkildə icra etməsi haqda məlumat (müqavilə);
- iddiaçı analoji işlərdə təcrübəsinin olması barədə sənədlər təqdim etməlidir; - iddiaçının avadanlığı və texnikası barədə məlumatlar;
- iddiaçının son 3 ildə 5 milyon manat dövriyyəsi olması şərtdir;
- iddiaçının müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;
- iddiaçının avadanlığı və texnikası barədə məlumatlar. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İştirakçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 20 noyabr 2023-cü il saat 11.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 28 noyabr 2023-cü il saat 17.00-a qədər Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsində yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-yə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsində yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-də 29 noyabr 2023-cü il saat 11.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***



**BİRİNCİ BİLDİRİŞ**

# Əmanətlərin Sığortalanması Fondu "Muğan Bank" ASC-nin ləğvedicisi təyin edildi

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 18 oktyabr 2023-cü il tarixli Qərarı ilə məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olduğuna, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olmasına, cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə, habelə bankın daxili idarəetmə və nəzarət prosedurları adekvat olmadığına görə "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 16.1.6-cı, 16.1.7-ci, 16.1.9-cu, 16.1.18-ci, 57-ci və 61.1-ci maddələrinə əsasən "Muğan Bank" ASC-nin lisenziyası 19 oktyabr 2023-cü il tarixindən etibarən ləğv edilmiş, banka müvəqqəti inzibatçı təyin edilmiş və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunmuşdur.

Bakı Apellyasiya Məhkəməsinin 24 oktyabr 2023-cü il tarixli 2-3(103)-54/2023 saylı qərarı ilə "Muğan Bank" ASC müflis elan edilmiş və iflas proseduruna başlanmışdır.

Bildiririk ki, Bakı Apellyasiya Məhkəməsinin sözügedən qərarına əsasən Əmanətlərin Sığortalanması Fondu "Muğan Bank" ASC-nin ləğvedicisi təyin edilmişdir.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 234 (30350) 26 oktyabr 2023-cü il, cümə axşamı

## İdman xəbərləri

### "Qəbələ" UEFA Gənclər Liqasında növbəti mərhələyə çıxıb

**UEFA Gənclər Liqasında "Qəbələ"nin U-19 komandası növbəti oyununu keçirib.**

I mərhələnin cavab matçında "qırmızı-qaralar" Macarıstanın "Puşkaş Akademiya" klubunun qonağı olub. Təmsilçimiz görüşü 1:0 hesablı qələbə ilə başa vurub. Oyunda 56-cı dəqiqədə Kənan Baxışov fərqlənib.

Qeydə edək ki, komandalar arasında ilk oyunda 1:1 hesabı qeydə alınmışdı.

Bununla da "Qəbələ" iki oyunun nəticəsinə görə, növbəti mərhələyə çıxıb. Komanda bu raundda "Leçce" (İtaliya) – "Olimpiakos" (Yunanıstan) cütünün qalibi ilə mübarizə aparacaq.

### Açıq Avropa birinciliyində 5 medal



***Taekvondoçularımız Serbiyanın paytaxtı Belqradda keçirilən açıq Avropa birinciliyində uğurla çıxış ediblər.***

Uşaqlar arasında keçirilən turnirdə komandamız 1 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb. A kateqoriyasında Mehman Qənbərli (27 kq) çempion adına layiq görülüb. O, qızıl medal uğrunda Omari Lapaçini (Gürcüstan) məğlub edib. Finalda yenilən Ülvi Məmmədov gümüş medal alıb. Bürünc medalları isə komandamızın aktivinə Harun Hüseynov (36 kq), Zaur Hüseynov (36 kq) və Nadir Paşayev (21 kq, B kateqoriyası) yazdırıblar.

### "Sabah" növbəti görüşdə də məğlub olub



**"Sabah" basketbol komandası FIBA Avropa Kubokunun müntəzəm mövsümündə növbəti oyununu keçirib.**

Azərbaycan çempionu D qrupunda Türkiyənin "Bağçaşehər" komandası ilə görüşüb. "Sərhədçi" İdman Mərkəzində baş tutan oyunda Türkiyə təmsilçisi 83:65 hesablı qələbə qazanıb.

Qeyd edək ki, "Sabah" ilk görüşündə Monteneqroda "Mornar"a 75:80 hesabı ilə məğlub olub.

### Karateçimiz dünya çempionatı finalında



***Macarıstanın paytaxtı Budapeştdə təşkil olunan dünya çempionatında uğurla çıxış edən Azərbaycan karateçisi İrina Zaretska (68 kq) finala yüksəlib.***

Təmsilçimiz həlledici mərhələdə İsveçrə idmançısı Yelena Quriçlə qarşılaşacaq.

Qeyd edək ki, idmançımız 2018 və 2021-ci illərdə keçirilən dünya çempionatlarının qalibi olub.

***Leyla SABİRQIZI***
***XQ***

## Məşhurların həyatı

# Mark Tvenin "iki gün"ü

**Dünya ədəbiyyatına "Tom Soyerin macəraları", "Şahzadə və dilənçi", "Geklberri Finnin macəraları" kimi məşhur romanlar bəxş etmiş amerikalı yazıçı Mark Tvenin həyatının ən vacib iki günü barədə maraqlı açıqlaması var.**



Məşhur yazıçı bu barədə öz dövründə çox müdrik sözlər deyib: "Sənin həyatının ən əhəmiyyətli iki günü bunlardır: anadan olduğun və dünyaya nə üçün gəldiyini anladığın gün".

Mark Tven bununla demək istəyirdi ki, həyatda iki məqam hər şeydən üstün və vacibdir. Birinci, insanın dünyaya göz açdığı və özünün həyat yoluna başladığı məqamdır. İkinci məqam isə insanın ona verilən həyatda məqsədini tam anladığı, nə üçün yaşadığını, və nəyə nail olmağa çalışdığını dərk etməsi ilə bağlıdır.

Bu iki məqamı birləşdirməyə çalışan yazıçı Mark Tvenin (əsl adı Semuel Lenqxorn Klemens) sözünün fəlsəfəsi ondan ibarətdir ki, doğulub ömür sürməkdən daha vacibi həyatda öz təyinatını və yerini tapmaqdır. Nə yazıqlar ki, bu tale həyatda heç də hamıya nəsib olmur.

***İ.HƏSƏNQALA***
***XQ***

## Texnologiya yenilikləri

# "iPhone"larda "göz xəbərdarlığı"

**Müasir smartfonların əksəriyyəti artıq istifadəçilərin gözlərindəki gərginliyi azaldan "Qaranlıq rejim" və "Gecə rejimi" kimi funksiyalarla təchiz olunub. İndi onlar Face ID-ni dəstəkləyən cihazlar üçün "Ekran məsafəsi" seçimini əlavə ediblər.**



İstifadəçinin gözləri ilə displey arasındakı məsafəni müəyyən etmək üçün selfi kamerası və digər "iPhone" sensorlarından istifadə edilir. Cihaz bir neçə dəqiqə ərzində gözlərinizə 30 santimetr məsafədən yaxın olarsa, ekranda mesaj görünür.

Yeni funksiyanın məqsədi gözün yorulma ehtimalını azaltmaqdır.

Bəs "Ekran məsafəsi"ni necə aktivləşdirmək olar? Bunun üçün əvvəlcə parametrlər açılır, sonra "Ekran vaxtı" bölməsinə keçilir. Daha sonra "Ekran məsafəsi" tapılır və açar işə salınır.

Bu funksiya "iPhone X" və ya daha yeni versiyalarda iOS 17, "iPad Pro 11" və ya daha yeni iPadOS 17 ilə işləyir.

***P.ƏFƏNDİ***
***XQ***

## Hadisə

# Motosiklet – ehtiyatlı get...

**Şabranda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Hadisə Şabran-Güləmli avtomobil yolunda qeydə alınıb.**



Motosiklet sürücüsü, 1981-ci il təvəllüdlü Anar Əli oğlu Məmmədov hərəkətdə olarkən idarəetməni itirib, nəticədə sürücü yolun kənarındakı maneəyə çırpılıb.

Yaralı təcili tibbi yardım briqadasının köməyi ilə ilkin yardım olunduqdan sonra Bakıdakı xəstəxanaların birinə göndərilib. Həkimlərin səylərinə baxmayaraq, A.Məmmədovun həyatını xilas etmək mümkün olmayıb.

***XQ***

## Hava

# Hava yağmursuz keçəcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən oktyabrın 26-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim cənub küləyi əsəcək. Gecə 14–17° , gündüz 21–26° isti olacaq.Atmosfer təzyiqi 762 mm civə sütunundan 758 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70–80, gündüz 60–65 faiz olacaq. Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10–15°, gündüz 21–26°, dağlarda gecə 3–8°, gündüz 12–17° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## Haqverdiyevin həyat gülməcələri



### "Dəli olmusan?"

Əbdürrəhim bəy Haqverdiyevin həyat yoldaşı Tükəzban xanım saysız - hesabsız nağıllar bilirmiş, hafizəsi də güclü imiş. Hətta ədib "Pəri-cadu" pyesinin məzmununu da Tükəzbanın söylədiyi "Qızıl don" nağılından götürübmüş. Əbdürrəhim bəy "bu qadının savadı olsaydı, nələr etməzdi" – fikirləşə-fikirləşə bir gün ona deyir:

– Tükəzban, həm yaxşı yaddaşın, həm də gözəl nitqin var. Qadın rollarında səhnəyə çıxarmağa da adam tapmırıq. Səndən yaxşı aktrisa olar, nə deyirsən?

Tükəzban ərinin sözünü ağzında qoyur:

– Kişi, sən lap dəli olmusan, camaat elə sənə şəbihgərdan (şəbeh çıxardan) adını doğru verib. Elə bir o qalmışdı ki, çıxam səhnəyə, atılam, düşəm. Ağlın gəzdiyin yerlərə gedib, deyəsən.

### "Əliqulu ağlamasın neyləsin?"



Bir gün Haqverdiyev küçədə gedərkən, səkinin kənarında bir uşağın ağladığını görür. Yaxınlaşıb səbəbini xəbər alsa da, uşaq cavab vermir. Ədib axırda naəlac qalıb uşağa deyir:

– Adın nədir, a bala?

Uşaq bu dəfə tez dillənir:

– Əliqulu.

Əbdürrəhim bəy təbəssümlə uşağın başını sığallayır və onu sakitləşdirmək üçün deyir:

– Bir adamın ki, adı Əliqulu ola, o, ağlamasın, neyləsin?

### "Sədrin maşınını keçərlər?"

1929-cu ildə Azərbaycan yazıçıları Gürcüstana qonaq gedirlər. Heyətin sədri Əbdürrəhim bəy Haqverdiyev, katibi Süleyman Rüstəm imiş. İki ölkənin yazıçıları görüşəndən sonra bir yerdə Msxeti dağlarına başqa bir tədbirə yollanmalı olurlar.

Ə.Haqverdiyev, C.Məmmədquluzadə və Q.Tabidze bir maşında, A.Şaiq, C.Cabbarlı və S.Rüstəm ikinci maşında, o biri yazıçılar da digər maşınlarda arxadan gəlirlərmiş. Haqverdiyevgilin mindiyi maşın birinci gedirmiş. Yolda C.Cabbarlı sürücünün qulağına nə pıçıldayırsa, maşın sürətini artırır və Msxetə o biri maşınlardan tez çatır.

Mənzil başında hamı Haqverdiyevi pərt görür. C.Məmmədquluzadə işi başa düşür və barmağı ilə S.Rüstəmi hədələyir.

Ə.Haqverdiyev heyətin katibi S. Rüstəmi yanına çağırır və deyir:

– Bu dəfə günahından keçirəm. Bir daha belə iş görsən, məndən incimə. Adam sədrin maşınını keçməz.

***Z.HÜSEYNLİ***
***XQ***

## Həkim məsləhəti

# Boğaz – bədənin qapısı

**İlin soyuq fəslində boğazı mikrob və viruslardan, yad təsirlərdən qorumaq çox vacibdir. Bununla bağlı tanınmış otolarinqoloq Vladimir Zaytsev oxuculara sadə və faydalı məsləhətlər verir. Mütəxəssisin sözlərinə görə, ilin soyuq fəslində küçədə açıq havada mümkün qədər az danışmaq lazımdır. Gecələr yataq otağının pəncərələrini heç bir halda açıq saxlamaq olmaz.**



Otolarinqoloq payızda və qışda qida rasionundan istiotlu, duzlu təamların çıxarılmasını məsləhət görür. Həm çox isti, həm də çox soyuq qidalardan istifadəni maksimum azaltmağı tövsiyə edən sahə mütəxəssisi sadə pəhrizə əməl etməklə boğazı kənar fəsadlardan qorumağın mümkünlüyünü qeyd edir.

"Dediyimiz qidalardan sui-istifadə etməsəniz, boğazınızın arxa divarını zədələnmədən qoruya bilərsiniz. Şaxtalı havada az danışmağa, gecələr yataq otağınızın pəcərələrini taybatay açmağa son qoyun. Çünki səhərə yaxın havanın temperaturu əhəmiyyətli dərəcədə aşağı düşür və bu səbəbdən boğazın arxa divarı soyuqlayır", – Zaytsev bildirib.

***SEVDA***
***XQ***

# Kartonvari dron

**Mançestr Universitetinin bir qrup mühəndisi tərəfindən dünyanın ən böyük dronu təqdim edilib.**



"GFQ" adlanan cihazın qanadlarının sahəsi 6,4 metrdir. 24,5 kiloqram çəkisi olan pilotsuz təyyarənin ən maraqlı xüsusiyyəti onun kartonabənzər material olan fotoblokdan hazırlanmasıdır.

Dron GFQ (Giant Foamboard Quadcopter) adlandırılıb. Cihazı asanlıqla sökmək və yenidən yığmaq mümkün olub.

***Fidan YAQUBLU***
***XQ***

✓ *"DOKUBAKU İnternational Dokumentary Film Festival" MMC-nin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır. VÖEN: 1404543771.*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – şöbə müdiri Şahmar Mövsümov Cavidan Hüseynovun anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4795
SİFARİŞ 2716
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00